

**“Biz fəxr edirik ki, 25 il müstəqil dövlət kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Gözəl ölkə qurmuşuq və bundan da gözəl olacaq.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# Azərbaycan Prokurorluğu

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*
*İyul - Sentyabr (2016-cı il)*



**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**



"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.10.2016
60x84 1/8 formatda 60 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə



© "Azərbaycan Prokurorluğu", 2016

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**16** Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbriki

## RƏSMİ TƏDBİRLƏR

**17** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir

**22** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilmişdir

**25** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**28** Bolqarıstanın vitse-prezidenti xanım Marqarita Popova ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirmişdir

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**30** Nazir Bayramov – Təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı: məzmunu və elan edilməsi qaydasının təkmilləşdirilməsi perspektivləri

## DİGƏR ÖLKƏLƏRİN TƏCRÜBƏSİNDƏN MARAQLI MƏLUMATLAR

**34** Ukrayna qanunvericiliyinə görə məhkəmə qərarı ibtidai istintaqda verilmiş ifadələrlə əsaslandırıla bilməz

## İCTİMAİYYƏTƏ HESABAT

**36** Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilmişdir

**39** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2016-cı ilin I yarımili ərzində görülmüş işlərə dair hesabat vermişdir

**41** Yuvenal ədliyyə sistemi barədə seminar keçirilmişdir

**41** “Vətəndaşların qəbulu işinin təşkili” mövzusunda seminar keçirilmişdir

**42** “Məxfi kargüzarlıq işinin təşkili” mövzusunda seminar keçirilmişdir

**42** Naxçıvan şəhər prokurorluğunda “İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti” mövzusunda seminar keçirilmişdir

## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**43** Baş Prokurorluğun nümayəndə heyəti Minskdə keçirilən MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak etmişdir

**44** Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir

**45** Azərbaycan Respublikasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir

**47** Baş Prokurorluğun nümayəndəsi Minskdə keçirilən «İnternet şəbəkəsində narkocinayətkarlığa qarşı mübarizə: istintaq və cinayət təqibi» adlı seminarda iştirak etmişdir

**47** Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

## NORMATİV HÜQUQİ AKTLAR

**48** Prokurorluq üzrə normativ aktlar

**52** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**



– İlin altı ayı arxada qalıb. Bu gün biz altı ayın yekunlarını müzakirə edəcəyik. Görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2016-cı ildə dünyanın müxtəlif bölgələrində hərbi toqquşmalar, müharibələr davam edir, yeni münaqişə ocaqları yaranır, dünyada təhlükələr artır. Eyni zamanda, ilin əvvəlindən və ondan əvvəlki dövrdən başlayaraq dünyada iqtisadi böhran daha da dərinləşir və demək olar ki, bütün ölkələr bu və ya digər formada bu böhrandan əziyyət çəkir.

Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. 2016-cı ildə də, – baxmayaraq ki, neftin qiyməti hələ də çox aşağı səviyyədədir, – Azərbaycan inamla inkişaf edir. Bunun təməlində düşünülmüş siyasət, apardığımız islahatlar və ölkəmizin gələcəyi ilə bağlı olan proqramlarımız dayanır. Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, biz bu ili də müvəffəqiyyətlə başa vuracağıq.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistanın niyyəti bəllidir. Onlar danışıqları müxtəlif yollarla pozmaq istəyirlər və görəndə ki, beynəlxalq vasitəçilər tərəfindən onlara təzyiq artır, növbəti təxribatlara əl atırlar. Onlardan biri də aprelin əvvəlində baş vermiş silahlı təxribat idi. Bizim mövqelərimizə silahlı hücum təşkil edilmişdir. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, əks-hücum əməliyyatı keçirərək işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desəm, 2 min hektar torpağı azad etdi. Biz indi ondan bir neçə dəfə böyük əraziyə tam nəzarət edirik.

Bu münaqişə tezliklə öz həllini tapmalıdır. Əgər belə olmasa, heç kim təminat verə bilməz ki, bu təxribatlar təkrarlanmayacaq. Çünki Ermənistanın niyyəti münaqişəni dondurulmuş vəziyyətdə sax-

lamaqdır. Onlar fikirləşirdilər ki, bizə qarşı edilən təxribat onların qələbəsi ilə nəticələnəcək. Ancaq onlar acı məğlubiyyətə uğrayıblar. Azərbaycan dövləti böyük hərbi qələbə qazanmışdır.

Aprel döyüşləri bir daha onu göstərir ki, status-kvo tezliklə dəyişdirilməlidir. Bunu artıq bu məsələ ilə məşğul olan vasitəçilər də dəfələrlə bəyan ediblər. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Əminəm ki, aprel döyüşlərinin nəticələri Ermənistan üçün dərs olacaq, onlar lazımi nəticələr çıxaracaqlar və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər. Belə ümidlər var. Çünki bir daha demək istəyirəm ki, son bir-iki ay ərzində danışıqlar prosesində çox böyük fəallıq var.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, status-kvo dəyişdirilməlidir, işğala son qoyulmalıdır. Nəinki BMT, bütün digər təşkilatlar da bizim mövqeyimizi dəstəkləyir. Dünən NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapıbdır. Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü tanınır və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

2016-cı ildə bizim xarici siyasətimiz çox fəal olmuşdur. İlin birinci yarısında Azərbaycana 10-dan çox dövlət və hökumət başçısı səfər etmişdir. Mənim çoxsaylı xarici səfərlərim beynəlxalq əlaqələrimizi daha da möhkəmləndirib. Mən ilin əvvəlindən bəri bir neçə beynəlxalq tədbirdə iştirak etmişəm. Davos Ümumdünya İqtisadi Forumu - bu, dünya miqyasında birinci beynəlxalq tədbirdir. Orada həm iqtisadi, həm siyasi məsələlər gündəlikdədir. Ondan sonra Münxen Təhlükəsizlik Konfransı - bu da dünya miqyasında Davos Forumu ilə eyni səviyyədə olan beynəlxalq tədbirdir. Orada da Azərbaycanın, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi səsləndi. Londonda Suriyaya yardım məqsədilə keçirilmiş konfransda mənim iştirakım Azərbaycanın mövqeyini və imkanlarını bir daha ortaya qoydu. Vaşinqtonda Nüvə Sammitində Azərbaycan fəal iştirak etmişdir. Bizim o Sammitə dəvət olunmağımız ölkəmizin nüfuzunu göstərir. Çünki Azərbaycan nüvə dövləti deyil və Azərbaycanda nüvə tədqiqatları demək olar ki, aparılmır. Ancaq buna baxmayaraq, Azərbaycan oraya dəvət edilmiş ölkələrin sırasında idi. Eyni zamanda, Sammit çərçivəsində Amerikanın yüksək səviyyəli rəhbərləri ilə – Prezident, dövlət katibi ilə mənim çox səmərəli görüşlərim olmuşdur.

Mən Türkiyədə iki beynəlxalq tədbirdə iştirak etmişəm. İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü keçirilmişdir və orada aprel döyüşləri ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəklənmişdir. Yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyü məsələləri əks olunmuşdur və münaqişənin bu prinsiplər əsasında həlli qeyd edilmişdir. Bununla bərabər, münaqişə ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində kontakt qrupu da yaradıldı. Bu da bizim böyük diplomatik uğurumuzdur.

Türkiyədə digər mötəbər beynəlxalq tədbirdə - Dünya Humanitar Sammitinin işində Azərbaycan çox fəal iştirak etmişdir. Bu səfərlərlə yanaşı, ikitərəfli formatda bir neçə səfər təşkil edilmişdir - Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə və Almaniyaya. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki görüş keçirilmişdir. May ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda.

Yəni, bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın o tədbirlərdə fəal iştirakı ölkəmizin önəmini göstərir, eyni zamanda, bizim üçün yeni imkanlar açır. Hər bir beynəlxalq tədbirdə Azərbaycanın mövqeyi səslənir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı. Dünən Varşavada NATO-nun Zirvə görüşündə də çıxışımın demək olar ki, yarısını mən bu mövzuya həsr etmişəm və orada iştirak edən dövlət və hökumət başçıları bir daha həqiqətləri eşidiblər. Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından və bizim beynəlxalq səviyyədə o qədər də çıxışımızın olmamasından istifadə edərək münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. İndi artıq o dövr arxada qalıb. Həqiqət ondan ibarətdir ki, Azərbaycan haqlıdır və beynəlxalq hüququn normaları bu münaqişə ilə bağlı tam şəkildə tətbiq edilməlidir.

Münaqişənin həlli ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm ki, bu il, xüsusilə son üç-dörd ay ərzində danışıqlar prosesində bəlkə də tarixdə gö-

rünməyən fəallıq müşahidə olunur. Aprel hadisələrindən sonra may ayında Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Vyanada görüş keçirilmişdir. Düzdür, Ermənistan tərəfi görüşün keçirilməsi üçün bir neçə şərt irəli sürmüşdür. Bu şərtləri irəli sürərək özlərini bir daha gülünc vəziyyətə qoymuşdular. Çünki yaxşı bilirdilər ki, Azərbaycan heç bir şərtlə razılaşmayacaq. Danışıqlar prosesi bizə də, onlara da lazımdır. Aprel hadisələri bunu bir daha göstərib. Əgər danışıqlar prosesi pozularsa və Ermənistan yenə də öz təxribatçı fəaliyyətini davam etdirərsə, vəziyyət dəyişə bilər.

Beləliklə, may ayında keçirilmiş görüşə Azərbaycan heç bir şərt qəbul etmədən qatılıb və öz mövqeyini ifadə edib. May görüşündə Azərbaycan tərəfindən hər hansı bir sənəd, yaxud da ki, bəyanat nə imzalanıb, nə də qəbul edilib. Həmsədr ölkələr bəyanat qəbul ediblər, amma o bəyanat onların daxili işidir. İyun ayında Rusiya tərəfinin təşəbbüsü, Prezident Putinin dəvəti ilə Sankt-Peterburqda görüş keçirilmişdir. O görüş də çox müsbət keçmişdir və müəyyən ümidlər yaratmışdır. Məhz buna görə görüşün nəticəsində birgə bəyanat qəbul edilmişdir. Bu bəyanat mətbuatda dərc edilib. Hesab edirəm ki, Azərbaycan dövlətinin mövqeyi o bəyanatda kifayət qədər geniş yer alıbdır.

Dünən Fransa Prezidenti cənab Ollandla görüşüm olubdur. Fransa da həmsədr ölkə kimi münaqişənin həlli üçün çalışır. Biz əslində Minsk qrupunun fəallığını müşahidə edirik. Həm Amerika, həm Rusiya, indi də Fransa Prezidenti bu məsələ ilə çox ciddi məşğuldurlar. Danışıqlar indi fəal mərhələyə keçməlidir və Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Yəni, artıq məsələnin mərhələli yollarla həlli bütün həmsədr dövlətlər tərəfindən, ATƏT tərəfindən qəbul edilir. Biz həmişə demişik və deyirik, bunun başqa yolu yoxdur. Məsələ mərhələli yolla həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

Qeyd etməliyəm ki, son 3-4 ay ərzində danışıqlarda çox böyük fəallıq müşahidə edilir. Təbiidir, Ermənistan indi hər vəchlə çalışacaq ki, danışıqlar prosesinə yenə də zərbə vursun. Yenə də çalışacaq ki, vaxtı uzatsın. İstisna edilmir ki, təmas xəttində növbəti təxribata əl atmaqla danışıqları pozsun. Necə ki, 2014-cü ildə Parisdə Prezident Ollandın təşəbbüsü ilə keçirilmiş çox müsbət danışıqlardan sonra bir həftə keçməmiş Ağdam rayonunda onlar genişmiqyaslı hərbi təlimlər keçirmişdilər. Bu, sırf təxribat idi və bunu indi hamı bilir, beynəlxalq ictimaiyyət də bilir. Bunu bəyan etməsələr də bilirlər. Həmin təxribat zamanı mövqelərimizə qəsdən hücum çəkmişlər ki, biz o helikopteri vuraq və ondan sonra bizi təcavüzkarlıqda ittiham etsinlər, danışıqlar pozulsun və pozuldu da. 2015-ci il danışıqlar prosesi üçün itirilmiş il olmuşdur. Sadəcə olaraq, Minsk qrupu dekabr ayında görüntü naminə İsveçrədə formal görüş keçirmişdir. O görüşdən sonra görünür Ermənistan tərəfi görüb ki, bu proses fəallaşa bilər və aprel ayında növbəti təxribat törətmişdir. Ona görə məsələ ilə məşğul olan böyük dövlətlər bütün bu reallıqları bilməlidirlər. Əslində, bilirlər. Mən ikitərəfli formatda Azərbaycanın mövqeyini, real məsələnin bu tarixini və münaqişənin səbəblərini açıqlamışam. Ona görə hesab edirəm ki, indiki dövrdə yaxşı imkanlar yaranıb. Ümid edirəm ki, bu proses müsbət nəticələrə gətirib çıxaracaq.

Bununla bərabər, təbii ki, biz hərbi potensialımızı gücləndiririk və gücləndirəcəyik. Aprel döyüşləri bir daha onu göstərib ki, biz düzgün siyasət aparırdıq və aparırıq. Bu gün hər kəs görür ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər. Biz sadəcə olaraq hələ də ümid edirik ki, bu münaqişə sülh yolu ilə həll oluna bilər və ümidlərimiz bir qədər artıb. İndi əsas məsələ bundan ibarətdir - həmsədr ölkələr və ATƏT Ermənistana ciddi təzyiq göstərməlidir ki, onlar təklif olunan məsələ ilə bağlı müsbət cavab versinlər.

Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliy-

yətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu, bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir. Ona görə artıq uzun illər ərzində apardığımız siyasət öz səmərəliliyini təsdiq etdi. Bundan sonra hərbi potensialımızın gücləndirilməsi, ordu quruculuğu prosesi daha da sürətlə getməlidir. Həm yerli istehsal daha da artmalıdır və artacaq, – bu gün artıq Azərbaycanın çox güclü hərbi sənayesi vardır, – həm də ən qabaqcıl texnologiyaya malik olan silahlar alınır və alınacaq.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Baxmayaraq ki, il ərzində neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycan inkişaf edir. Düzdür, ümumi daxili məhsul bir qədər azalıb. Bunun müxtəlif səbəbləri var. Ancaq sevindirici hal ondan ibarətdir ki, iqtisadiyyatın əsas sahələri – sənaye və kənd təsərrüfatı artıb. Yəni, real sektor artıb. Sənaye istehsalı 0,6 faiz artıb. Düzdür, o qədər də böyük artım deyil, ancaq hesab edirəm ki, bu, böhran ili üçün müsbət haldır. Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu, çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir. Gələcəkdə bu, daha da artacaq. Çünki bir qədər sonra mən gələcək planlar, o cümlədən sənaye potensialının inkişafı haqqında danışacağam. Əlbəttə ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılacaqdır.

Kənd təsərrüfatı 3 faizdən bir qədər çox artıb. Bu da müsbət haldır, ancaq potensial daha da böyükdür. Bu il görülən və görüləcək işlər, həmçinin gələn il görüləcək işlər nəticəsində kənd təsərrüfatında çox böyük irəliləyiş olacaqdır. Bu barədə indi burada məlumat veriləcəkdir.

Ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub. Bu da çox müsbət haldır. Azərbaycan sərmayə qoyuluşu üçün cəlbedici ölkədir. Bu il daha çox xarici sərmayə qoyulubdur. Mən bunu da müsbət qiymətləndirirəm. Çünki daxili sərmayələr azalır. Ona görə ki, indi bizim investisiya proqramımız ixtisar olunub. Bu da təbiidir. Ancaq xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkə kimi qalır və əminəm ki, gələcəkdə bu proses davam etdiriləcəkdir.

İlin altı ayında 78 min daimi iş yeri açılıbdır. Ümumiyyətlə, iş yerlərinin açılması 90 minə yaxındır. Amma onlardan 78 mini daimi iş yeridir. Bu da çox müsbət haldır. Çünki ilin əvvəlində müəyyən narahatlıq var idi ki, bəzi iş yerləri bağlanır. Düzdür, 26 min iş yeri bağlanıbdır. Ancaq 78 min iş yeri açılıbdır. Ona görə, biz görülən tədbirlər nəticəsində, o cümlədən dövlət şirkətlərinin xətti ilə açılmış iş yerlərinin sayı hesabına, – özəl sektorda da bu işlər gedir, – burada da müsbət dinamikanı görürük. Özəl sektora da dövlət qurumları tərəfindən çox ciddi tövsiyə edilmişdir ki, onlar ixtisarlara getməsinlər, bir qədər az pul qazansınlar, ancaq insanları küçələrə tökməsinlər. Ona görə, qeyd etməliyəm ki, özəl sektor da özünü çox məsuliyyətli aparıb. Bu da təbiidir. Çünki özəl sektor uzun illərdir ki, dövlət tərəfindən çox böyük dəstək - həm siyasi, həm də ki, maddi dəstək alır. Güzəştli şərtlərlə verilən kreditlərin həcmi 1 milyard dolları ötüb. Ona görə, əlbəttə, özəl sektor da sosial məsuliyyət daşımalıdır. Ona görə, bax, 78 min iş yeri açılmış, 26 min iş yeri bağlanmışdır. Deməli, 50 mindən çox yeni iş yerləri açılıbdır və bu da çox müsbət haldır.

Sosial məsələlərin həlli istiqamətində çox ciddi addımlar atılmışdır. Ümumiyyətlə, 2016-cı ilin ötən dövründə bəzi ölkələrdə maaşlar, pensiyalar ixtisar edilib. Ancaq Azərbaycanda maaşlar və pensiyalar 10 faiz qaldırılıbdır və bu da çox ciddi sosial təşəbbüsdür.

Bu il biz sosial mənzillərin inşasına başlamaq fikrindəyik. Mənzil İnşaatı Dövlət Agentliyi - MİDA yaradılıb. Onun əsas vəzifəsi aztəminatlı ailələrə çox əlverişli şərtlərlə mənzillərin verilməsidir. Eyni zamanda, bu proses kütləvi xarakter alandan sonra bunun inşaat və tikinti materialları istehsalı sektorlarına və beləliklə, sənaye potensialımıza çox müsbət təsiri olacaq. İndi hazırlıq işləri aparılır. Ümid edirəm ki, bu il artıq praktiki addımlar atılacaq və bu yeni sosial təşəbbüs çox geniş vüsət alacaqdır.

2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Düzdür, biz bu islahatları uzun illərdir ki, aparırıq. Ancaq əvvəlki dövrdə vəziyyət başqa idi. Neft hasilatı artırdı. Neftin qiyməti 100 dollardan çox idi. Beləliklə, bizim əsas vəzifəmiz infrastruktur layihələrinin – həm sosial infrastruktur, həm digər infrastruktur layihələrinin icrası idi. Çox böyük vəsait ayrılırdı. Biz elektrik enerjisi, qazlaşdırma, kənd yollarının tikintisi ilə bağlı əsas infrastruktur layihələrini qısa müddətdə icra etdik. Hələ ki, bu istiqamətdə işlər davam edir, amma infrastruktur layihələrinin böyük əksəriyyəti artıq reallaşıb.

İndi vəziyyət tam başqadır. Mən artıq dəfələrlə demişəm, biz postneft dövründə yaşayırıq. Düzdür, bir neçə ildən sonra Azərbaycan dünya bazarlarına çox böyük həcmdə təbii qazı da ixrac etməyə baş-

layacaq və yenə də valyuta axını artacaq. Ancaq biz elə yaşamalıyıq ki, artıq postneft dövründəyik və belə olan halda, əlbəttə, ciddi, daha da dərin iqtisadi islahatlar aparılmalı idi və aparılır. Həm maliyyə-bank sektorunda, həm də kənd təsərrüfatının, sənaye potensialımızın inkişafı ilə bağlı çox ciddi islahatlar aparılır. İxracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün çox böyük güzəştlər tətbiq olunur. Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır. Bu il gömrük orqanlarından daxilolmalar plandan 17 faiz artıq yığılıbdır. Bu, çox müsbət nəticədir. Vergi orqanlarında yığım plandan 2 faiz artıq təmin edilib. Amma orada da böyük ehtiyatlar var. Hesab edirəm ki, vergi sistemində aparılan islahatlar ilin sonuna qədər bütün bu vəziyyəti şəffaflaşdıracaq. Necə ki, gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə öz həllini tapır. Təbii ki, bunu həm insanlar, biznesmenlər, iş adamları görür, eyni zamanda, büdcəyə daha da böyük həcmdə vəsait daxil olur. Yəni, bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda biz neftdən asılılığı tamamilə aradan götürəcəyik. Məsələ məhz belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. Ondan sonra neftin qiyməti qalxdı-düşdü, bunun heç bir əhəmiyyəti olmayacaq.

Qeyd etdiyim kimi, sosial sahədə maaşlar, pensiyalar qalxıb, eyni zamanda, digər islahatlar da aparılır. İnsanlara daha çox imkanlar yaradılmalıdır ki, onlar özləri öz məşğulluğunu təmin etsinlər. Bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Biz birinci təcrübənin nəticələrini yaqin ki, yaxın vaxtlarda görəcəyik. Hesab edirəm ki, öz məşğulluğunu təminetmə yanaşması üstünlük təşkil etməlidir.

Biz uzun illər insanlara ünvanlı sosial yardım veririk. Bu da çox ciddi sosial təşəbbüsdür. Yüz mindən çox ailəyə dövlət tərəfindən ünvanlı sosial yardım verilir. Biz bunu ona görə edirik ki, bu insanların maddi təminatı lazımi səviyyədə deyil. Ancaq biz tədricən o aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar. Çünki bəzi hallarda dövlət sektorunda açılmış iş yerlərinə o qədər də böyük maraq göstərilmir. Bəziləri deyirlər ki, mən dövlətdən yardım alıram, niyə gedib işləməliyəm? Bu, yaxşı hal deyil. Bu, ələbaxımlıq yaradır. Ələbaxımlıq da gələcəkdə çox böyük problem ola bilər. Ona görə, insanlar özləri daha da məsuliyyətli olmalıdırlar. Dövlət qurumları şərait yaratmalıdır ki, tədricən ünvanlı sosial yardım əvəzinə hər bir insan özü üçün iş qursun. Dövlət kömək edəcək. Prezidentin ehtiyat fondundan bu məqsədlər üçün ilkin olaraq 6 milyon manat ayrılıbdır. Lazım olarsa daha da çox vəsait ayrılacaq. Hər bir rayonda insanlar fərdi qaydada işlə təmin ediləcək. Onlar dövlətdən asılı olmayacaqlar. Onlar halal pul qazanacaqlar, ailələrini dolandıracaqlar.

Yəni, 2016-cı ilin birinci yarısında doğrudan da böyük işlər görülüb. Biz bu işlərin nəticələrini gələcək illərdə görəcəyik. Bununla bərabər, ölkəmiz üçün strateji əhəmiyyət daşıyan iki istiqamət üzrə də yaxşı nəticələr var. Həm “Cənub” qaz dəhlizinin, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin icrası ölkəmizin önəmini böyük dərəcədə artıracaq. Bu layihələr Azərbaycan və bizim tərəfdaşlarımız üçün çox böyük strateji əhəmiyyət daşıyır. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, Azərbaycan nəinki regional, dünya miqyaslı nəqliyyat mərkəzlərinin birinə çevrilməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür. Həm liman, həm Şimal-Cənub və Şərq-Qərb dəhlizləri inşa edilir. İndi bütün tərəfdaş ölkələrlə və potensial tərəfdaş ölkələrlə ciddi danışıqlar aparılır. Biz çalışmalıyıq ki, yükləri səfərbər edək və Azərbaycan ərazisindən keçən yük daşımalarının sayı artsın. Bu da ölkəmizin həm siyasi maraqlarına cavab verəcək, həm də ki, böyük mənfəət gətirəcəkdir.

Əlbəttə ki, 2016-cı ilin ötən dövründə çox işlər görülüb. Görülmüş bütün işlər haqqında danışmaq mümkün deyil. Bunun üçün bir neçə saat vaxt lazımdır. Mən əsas məsələləri qeyd etdim. Müzakirələrdə məlumatlar veriləcək. Mən də yekun sözümdə tapşırıqlarla bağlı öz fikirlərimi bildirəcəyəm.

***

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

***

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.

# Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi



– İlin sonuna qədər biz fəal işləməliyik ki, qarşıda duran bütün vəzifələri icra edək. Bir daha qeyd etmək istəyirəm, ötən altı ayın nəticələri göstərir ki, Azərbaycan 2016-cı ili də uğurla başa vuracaq. Əlbəttə ki, biz əsas prioritet istiqamətlər üzrə işimizi daha da təkmilləşdirməliyik. Bu gün çıxışlarda da həm görülmüş və görüləcək işlər, həm də əsas prioritet istiqamətlər haqqında məlumatlar verildi. Əslində, bu gün çıxışlarda səslənən fikirlər bizim gələcək fəaliyyətimizin istiqamətlərini müəyyən edir, yəni, bir daha göstərir ki, sənaye potensialı və kənd təsərrüfatı gələcək inkişaf üçün əsas rol oynayacaq. 2016-cı ilin birinci yarısının iqtisadi göstəriciləri də çox ümidvericidir. Bir daha qeyd etmək istəyirəm ki, qeyri-neft sənayemiz 2,4 faiz, kənd təsərrüfatı isə 3,1 faiz artıb. Ancaq əminəm ki, xüsusilə kənd təsərrüfatı istehsalı ilin sonuna qədər daha da artacaq.

Sənaye istehsalı ilə bağlı həm iri layihələr icra edilir və eyni zamanda, orta və kiçik sahibkarlığın inkişafı sənaye potensialımızı daha da gücləndirəcəkdir. Mən iri layihələr arasında əlbəttə ki, Sumqayıt Kimya Sənaye Parkında həyata keçirilən layihələri qeyd etmək istəyirəm. Onların arasında SOCAR Polimer kompleksinin tikintisi xüsusi yer tutur. Buraya böyük investisiya – təqribən 700 milyon dollardan çox sərmayə qoyulur. İki ildən sonra artıq bu müəssisə hazır məhsul istehsal edəcək. İdxaldan asılılıq tamamilə aradan götürüləcək və böyük ixrac potensialı yaranacaqdır. Gələcək fəaliyyətimiz üçün bu, əsas istiqamət, prioritet olmalıdır. İdxaldan maksimum dərəcədə asılılığımızı aradan götürmək, ixrac potensialımızı artırmaq və bununla paralel olaraq, ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi işlər aparılmalıdır. Əlbəttə, birjada satılan məhsullar üçün bazar axtarmağa ehtiyac yoxdur. Ancaq digər məhsullar üçün biz indi gərək rəqabətə girək. Çünki indi dünyada ixrac bazarları uğrunda böyük rəqabət aparılır. Böyük dövlətlər, böyük firmalar artıq bazarları bö-

yük dərəcədə bölüblər. Ona görə bu bazarlara öz məhsulumuzla girmək üçün gərək böyük səylər göstərək.

Eyni zamanda, 2018-ci ildə azot gübrələri zavodunun istismara verilməsi planlaşdırılır. Bu da gübrələrə olan tələbatımızı tam təmin edəcək, idxala artıq ehtiyac olmayacaq və böyük həcmdə ixrac potensialı yaranacaqdır. Burada da üstünlük ondan ibarətdir ki, bu məhsulların satışı ilə bağlı heç bir problem olmayacaq. O ki qaldı polimer zavodunun fəaliyyətinə bu, birinci mərhələ olmalıdır. Ondan sonra və bəlkə də indidən özəl sektor da qoşulmalıdır ki, artıq onlar da hazır məhsul istehsalına başlasınlar. Çünki bu xammalın istehsalı böyük imkanlar yaradır. Bu zavoddan faydalanan özəl sektor çox cəld fəaliyyət göstərməlidir, çevik siyasət aparmalıdır. Əgər lazım olarsa, tezliklə dövlətin dəstəyi ilə bir çox kiçik və orta müəssisələr yaradılmalıdır ki, onlar Azərbaycanda hazır məhsul istehsal etsinlər.

Digər iri sənaye müəssisələri yaradılır, yaradılacaq. Ancaq əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada iqtisadi potensialı müəyyən edən orta və kiçik sahibkarlardır. Biz də bu yolla getməliyik və sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda bir sahə var ki, o, demək olar, heç inkişaf etməyib. Həm özəl sektor maraq göstərməyib, həm də dövlət bu sahəni bir qədər diqqətdən kənarda saxlayıb. Bu da dərman preparatlarının istehsalıdır. Biz demək olar ki, 100 faiz idxaldan asılıyıq. Düzdür son vaxtlar bu sahədə görülmüş tədbirlər nəticəsində dövlət tənzimləyici rolunu oynayır. İqtisadiyyat Nazirliyi Səhiyyə Nazirliyi ilə birlikdə artıq bir ildən çoxdur ki, bu məsələ ilə məşğuldur. Nəticədə dərman preparatlarının qiymətində çox ciddi azalma müşahidə olunur. Eyni zamanda, artıq keyfiyyətə də çox ciddi nəzarət edilir. Baxmayaraq ki, manatın məzənnəsi aşağı düşüb və biz idxaldan tam asılıyıq, görülmüş tədbirlər, dövlətin müsbət mənada müdaxiləsi nəticəsində burada qiymətlərdə sabitləşmə var. Bir çox dərman preparatlarının qiymətləri aşağı düşüb. Ancaq indi vaxt gəlib çatıb ki, Azərbaycanda dərman preparatlarının istehsalına başlansın. Müvafiq göstərişlər verilibdir, bir neçə xarici şirkətlə danışıqlar aparılır, böyük maraq var. Çünki Azərbaycan bazarı kifayət qədər böyük bazardır. Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır və dinamika da müsbətdir. Ona görə xarici firmalar böyük maraq göstərirlər. Biz bundan istifadə etməliyik. Dərman preparatlarının istehsalı üçün indi ciddi bir proqram hazırlanır və bir klastr yaradılmalıdır. Beləliklə, həm bu sahədə də sənaye potensialı inkişaf edəcək, idxaldan asılılıq azalacaq və həm də vətəndaşlarımızı daha keyfiyyətli dərmanlarla təmin edə bilərik. Hesab edirəm ki, ilin sonuna qədər bütün danışıqlar prosesi, bütün təşkilati məsələlər öz həllini tapmalıdır. Bu il artıq biz dərman fabriklərinin tikintisinə başlamalıyıq.

Mən dəfələrlə qeyd etmişəm ki, Azərbaycanda bir neçə sənaye mərkəzi yaradılmalıdır. Əlbəttə ki, Bakı Cənubi Qafqazın ən böyük sənaye şəhəridir. Gəncə, Sumqayıt və eyni zamanda, Mingəçevir şəhərində çox böyük sənaye potensialı, çox hazırlıqlı kadr potensialı var. Bu il Mingəçevir şəhərində yüngül sənaye kompleksinin təməli qoyulmalıdır. Bu, Mingəçevirdə işsizlik problemlərinin həllinə çox müsbət təsir göstərəcək və biz çox böyük, yeni sənaye mərkəzini yaradacağıq. Mingəçevirdə bir neçə böyük sənaye müəssisəsinin tikintisi nəzərdə tutulur. Burada da yüngül sənaye inkişaf edəcək. Yaxın zamanlarda minlərlə iş yeri açılacaqdır. İlk növbədə bu müəssisələrin inşası zamanı və ondan sonra həmin müəssisələrdə işləyəcək insanların sayı minlərlə ölçüləcək. Beləliklə, biz yeni sənaye mərkəzi yaradacağıq və insanları işlə təmin edəcəyik. Bu ilin sonuna qədər artıq birinci müəssisənin təməl daşı qoyulmalıdır və əminəm ki, qoyulacaqdır.

Bildiyiniz kimi, artıq müəyyən müddət ərzində hər bir rayonda sənaye zonalarının yaradılması istiqamətində iş aparılır. Birinci pilot layihə Neftçala rayonunda icra edilir. Neftçalada artıq səkkiz layihə hazırdır və bu layihələrin icrasına 40 milyon manat investisiya qoyulacaq. İkinci sənaye zonası Masallı şəhərində yaradılacaqdır. Masallı sənaye zonasında fəaliyyət göstərmək üçün sahibkarlar tərəfindən 33 layihə təqdim olunub. Bu layihələrin investisiya həcmi 31 milyon manatdır. Bu, çox müsbət inkişafdır. Bu, onu göstərir ki, bizim qəbul etdiyimiz qərarlar icra edilir. Əminəm ki, digər şəhər və rayonlarımızda da buna oxşar proseslər sürətlənəcək. Çünki hər bir rayonda sənaye potensialının inkişafı üçün gözəl imkanlar var. Biz ilk növbədə özümüzü bütün sənaye məhsulları ilə təmin etməliyik. Eyni zamanda, çox ciddi ixrac potensialı da yaratmalıyıq və xarici bazarlara çıxmalıyıq. Bununla bərabər, bu, məşğulluq problemlərinin həllinə də çox müsbət təsir göstərəcəkdir.

Bu yaxınlarda “Azərxalça” Səhmdar Cəmiyyəti yaradılıbdır. Xalçaçılıq sənəti bizim milli sərvətimizdir. Əsrlər boyu Azərbaycan xalçaçılığı inkişaf etdiribdir və Bakının mərkəzində – Bulvarda açılmış Xalça Muzeyi həm özlüyündə bir memarlıq əsəridir və eyni zamanda, bizim qədim sənətimizi bütün dünyada nümayiş etdirir. Ancaq əfsuslar olsun ki, xalçaçılıq sənaye kimi Azərbaycanda az inkişaf edib. Ancaq fərdi qaydada bu sahə ilə məşğul olanlar xalça toxuyurlar və bunu həm ölkə daxilində, həm də xaricə sata bilirlər. Nəzərə alsaq ki, bu sahədə bizim böyük ənənələrimiz var, xalça sənəti Azərbaycan xalqının böyük sərvətidir və dünya miqyasında biz qabaqcıl yerlərdəyik, ona görə qərar qəbul edilib ki, bu məsələlər məqsədyönlü şəkildə öz həllini tapsın. Həm bu qədim sənət yaşasın, kadrlar axını təmin edilsin, eyni zamanda, biz xalçaçılıq sənayesini də yaradaq. Bu, ixrac yönümlü məhsul kimi ölkəmizə böyük həcmdə valyuta gətirəcək.

Artıq bütün struktur məsələləri öz həllini tapıb. Eyni zamanda, Prezident Administrasiyasına göstəriş verilib ki, müxtəlif bölgələrdə yerlər ayrılsın və xalçaçılıqla məşğul olanlar orada işləsinlər. Göstəriş artıq icra edilir. Dövlət tərəfindən bütün lazımi avadanlıqlar, dəzgahlar təmin edilir və ediləcək. Birinci mərhələdə min və ondan sonrakı mərhələlərdə 5 min iş yeri açılacaq. Həm məşğulluq təmin olunacaq, – xüsusilə nəzərə alsaq ki, daha çox qadınlar bu işlərlə – toxuculuqla, xalçaçılıqla məşğuldurlar, – biz qadınları işlə təmin edəcəyik və həm də ixrac məhsulu yaranacaq. Beləliklə, biz burada bir neçə məqsədi təmin edəcəyik.

Bir sözlə, sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Bu il və növbəti illərdə bu sahəyə diqqət göstəriləcək.

Bu gün kənd təsərrüfatının inkişafı ilə bağlı məruzələr səsləndi. Həm kənd təsərrüfatı naziri, həm “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri çıxış etdilər. Çünki bu məsələlər bir-biri ilə sıx bağlıdır. Kənd təsərrüfatında çox böyük inkişaf gözlənilir. Birincisi, indi həm islahatlar aparılır, tədbirlər görülür, həm də çox ciddi elmi yanaşma var. Əminəm ki, biz yaxın zamanlarda daha da böyük nəticələr görəcəyik. Qeyd etdiyim kimi, bu il artıq 3,1 faiz artım var. Amma daha da böyük artım gözlənilir. Əlbəttə ki, biz torpaqlardan daha da səmərəli şəkildə istifadə etməliyik. Burada təkliflər səsləndi. Mən bu təklifləri, xüsusilə heyvandarlıqla bağlı olan təklifləri dəstəkləyirəm. İndi heyvandarlıq qapalı yerlərdə inkişaf edir. Ona görə, o qədər də böyük örüş torpaqlarına ehtiyac yoxdur. Bu torpaqlardan səmərəli şəkildə istifadə olunmalıdır ki, ərzaq təhlükəsizliyi tam təmin edilsin və çox böyük ixrac potensialı da yaradılsın.

Biz əvvəlki dövrlərdə təbii olaraq əsas səylərimizi ərzaq təhlükəsizliyi məsələlərinə yönəltmişdik. Çünki bir neçə il bundan əvvəl çox böyük problemlərlə üzləşmişdik. Yəqin ki, xatırlayırsınız, hətta imzalanmış kontraktlar da icra edilmirdi. Çünki biz taxılı, buğdanı idxal edirdik. Ancaq sonra bəzi ölkələrdə quraqlıq baş verdi, çətinliklər yaşandı və bizim kontraktlarımız ləğv edildi.

Bu, bizim üçün çox ciddi bir siqnal idi. Ondan sonra biz qərar verdik ki, taxılçılığı sürətlə inkişaf etdirək. İri fermer təsərrüfatları yaradıldı, məhsuldarlıq artdı, 23 sentnerdən 30 sentnerə qalxdı. İri fermer təsərrüfatlarında məhsuldarlıq 50-60 sentnerə bərabərdir. Yəni, ərzaq təhlükəsizliyi məsələləri ön planda idi. Biz indi özümüzü ətlə təmin edirik. Quş əti ilə tam təmin edirik. Yəni, bu, ərzaq təhlükəsizliyi məsələləri idi. Ancaq bununla bərabər, indi vaxt gəlib çatıb ki, texniki bitkilərə də ciddi fikir verilsin. Xüsusilə nəzərə alsaq ki, neftdən gələn gəlirlərin həcmi azalıb, biz bu gəlirləri müəyyən mənada kənd təsərrüfatı məhsullarının ixracı ilə kompensasiya etməliyik.

Ona görə, torpaqlardan səmərəli şəkildə istifadə əsas vəzifədir. Bəzi hallarda torpaqlar zəbt edilib. Minlərlə torpaq sahələri hasarlanıb. Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış da hazırlayıb veriblər və orada dövlət məmurlarının adları da var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur. Bu, yolverilməzdir. Torpaqlardan səmərəli şəkildə istifadə edilməlidir. Əgər səmərəli şəkildə istifadə edilmirsə, həmin torpaqlar sahibkarlardan və yaxud da ki digər şəxslərdən alınmalıdır və o insanlara verilməlidir ki, onlar əkib-becərsinlər. Ona görə, Prezident Administrasiyasına göstəriş verildi ki, əkilməyən kənd təsərrüfatı təyinatlı torpaq olmamalıdır. Yerli icra orqanları da bu məsələ ilə məşğuldurlar. İmkanı olan insanlar kənd təsərrüfatına investisiya qoysunlar ki, ölkəyə də xeyir olsun, özləri də xeyir götürsünlər.

Taxılçılıqla bağlı. Qeyd etdiyim kimi, biz hələ ki özümüzü taxılla tam təmin edə bilmirik. Ancaq mən hesab edirəm ki, gələcəkdə biz məhsuldarlığın artırılması hesabına taxılçılığı inkişaf etdirməliyik. Biz iri fermer təsərrüfatlarının timsalında görürük ki,

məhsuldarlığı iki dəfə artırmaq olar. Əgər Azərbaycanda taxılçılıqda orta məhsuldarlıq hektardan 50 sentner olarsa, onda bizə yeni torpaq sahələri də lazım deyil. Biz meliorativ tədbirləri digər məhsulların yetişdirilməsinə yönəldə bilərik və beləliklə, ixrac üçün yeni imkanlar yaranacaq.

Bu il texniki bitkilərin istehsalı ilə bağlı çox ciddi addımlar atılıb. Bu işdə Prezident Administrasiyasının fəaliyyətini xüsusi qeyd etməliyəm və yerli icra orqanlarının rəhbərləri çox səmərəli işlədilər. Təbii ki, Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi bu işlərdə çox fəal iştirak edirlər. Qısa müddət ərzində biz bu sahədə çox ciddi dönüş yarada bilmişik. Burada bəzi rəqəmlər səsləndi. Mən bu məsələlərə bir qədər geniş toxunmaq istəyirəm. Misal üçün, sovet dönəmində Azərbaycanda baramaçılıq çox geniş vüsət almışdı. Amma sonra biz gördük ki, bu sahə demək olar tamamilə dağılıb gedib. Burada qeyd edildiyi kimi, əgər keçən il ancaq bir rayonda – Şəkidə 200 kiloqramdan bir qədər çox barama istehsal edilibsə, bu il 25 rayonda qısa müddətdə 70 ton barama istehsal olunub. Yəni, 45 gün ərzində insanlar dövlətin dəstəyi ilə halal pul qazanıblar. Minlərlə insan bu 45 gündə 560 manat pul alıb və ailəyə aparıb.

İndi bizim daha da geniş planlarımız var. Biz artıq bir kiloqram baramaya verilən məbləği də demək olar ki, üç dəfə artırmışıq. Əgər əvvəllər bir kiloqrama 3 manat verilirdisə, indi 8 manat verilir. Tut tinglərinin əkilməsi prosesi sürətlə aparılmalıdır. Mən maraqlanmışam və verilən məlumata görə, Azərbaycanda 354 min tut ağacı var. Amma bizim planlarımıza görə payız mövsümündə 1 milyon 600 min tut tingi əkilməlidir. Bu, nəticə etibarilə barama istehsalını keçən ildəki 232 kiloqramdan 2019-cu ildə 1300 tona qaldıracaq. Əgər bu il 45 gündə insanlar 560 min manat pul alıblarsa, 2019-cu ildə 10 milyon manat pul alacaqlar. Dövlət, bax, bu işləri görür və görəcək. Ancaq mən kəndlərdə yaşayan vətəndaşlara da müraciət edirəm ki, siz də bu işlərə qoşulun. Bu, həm dövlət, həm də vətəndaşlar üçün çox yaxşı qazanc mənbəyi olacaq. Beləliklə, biz dünya bazarlarına öz ipəyimizlə daha geniş şəkildə çıxacağıq. Bu, həm Azərbaycanın tanıdılması, həm ipək kombinatının tam gücü ilə işləməsi, məşğulluğun artırılması üçün lazımdır. Eyni zamanda, insanlar pul qazanacaqlar, dövlət valyuta qazanacaqdır. Xarici valyuta Azərbaycana gələcəkdir.

Tütünçülüyün inkişafına da çox böyük maraq var və burada da cəmi bir il ərzində böyük işlər görülüb. 2015-ci ildə 1400 hektarda, bu il 2500 hektarda tütün əkilib və bu, daha da geniş vüsət almalıdır. Tütünçülük də çox gəlirli sahədir. Əfsuslar olsun ki, bu sahə uzun illər diqqətdən kənarda qalmışdır. İndi biz tütünçülüyü də bərpa edəcəyik. Ənənəvi bölgələrdə tütünçülüklə məşğul olanlar da buna hazır olsunlar. Dövlət öz dəstəyini verir, verəcək. Eyni zamanda, tütünün alınması üçün dövlət öz dəstəyini göstərməlidir və göstərəcəkdir.

Pambıqçılıqla bağlı çox ciddi addımlar atılıb. Biz pambıqçılığı bərpa edirik, dirildirik və pambıqçılığın şöhrətini özünə qaytarırıq. Əfsuslar olsun ki, son illər ərzində bu sahə də tənəzzülə uğrayıb. Keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıb. Cəmi bir neçə ay ərzində görülmüş tədbirlər nəticəsində biz 52 min hektarda pambıq əkinini təmin etmişik və bu il 100 min ton məhsul gözlənilir. Gələn il 120 min hektar əkilməlidir. Yeni texnologiyalar, yeni suvarma sistemləri tətbiq olunacaq. Ona görə, hektardan məhsuldarlıq indiki 20 sentnerdən minimum 30 sentnerə qalxmalıdır. Belə olan halda, gələn il minimum 300 min ton pambıq yığılmalıdır. Bu, ölkəmizə həm valyuta gətirəcək, həm məşğulluğu təmin edəcək. Sovet dövründə çalışanlar yaxşı bilirlər ki, o vaxt hər hektarda minimum 2 nəfər işləyirdi. Əgər hər hektarda 2 nəfər işləsə, bax bu il 100 min nəfər işlə təmin olunur, gələn il 250 min nəfər işlə təmin olunacaq. Ancaq hesab edirəm ki, biz pambıqçılığı tam bərpa etməliyik. Gələn il gözlənilən 300 min ton son hədd deyil, daha da artırmalıyıq. Buna çox böyük maraq var və hazırda 24 rayonda pambıqçılıq inkişaf edir, insanlar çox razıdırlar, çox böyük minnətdarlıq bildirirlər. Mən bir daha demək istəyirəm ki, bu sahə prioritet sahə kimi qalacaq və burada ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir. Xüsusilə suvarma ilə bağlı tədbirlərin və meliorativ tədbirlərin görülməsi burada çox ciddi rol oynayacaq. Bununla bərabər, Maliyyə Nazirliyinə göstəriş verilmişdir ki, bu il texnikanın alınmasına böyük məbləğdə vəsait ayrılsın.

Ancaq texnikanın alınmasına iki il ərzində 360 milyon dollar, bu il isə 170 milyon dollar vəsait xərclənəcək. Baxmayaraq ki, biz valyutaya qənaət etməliyik, ancaq bu sahəyə vəsait qoymalıyıq ki, həm məşğulluq artsın, həm də bu, özünü doğruldacaq. Çünki satılan məhsul valyuta gətirəcək və beləliklə, bütün borclar bağlanacaq. Əlbəttə ki, texni-

kanın alınmasına sərf edilən vəsait də dövlətə qayıdacaqdır.

Digər kənd təsərrüfatı məhsullarının istehsalı ilə maraqlananda maraqlı bir mənzərə ortaya çıxır. Məlumdur ki, ən çox valyuta gətirən məhsullardan biri də fındıqdır. Ancaq qeyd etməliyəm ki, dövlət fındıqçılığın inkişafına o qədər də böyük dəstək verməyib. Keçən il fındığın ixracından Azərbaycana 90 milyon dollar vəsait gəlib. Fındıqdan sonra ən çox valyuta gətirən məhsul xurmadır. Yəni, bütün bunları biz bilməliyik və bu sahələrə çox ciddi dövlət dəstəyi verilməlidir. Ona görə, mən Prezident Administrasiyasına, Kənd Təsərrüfatı Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, digər aidiyyəti qurumlara göstəriş verirəm ki, bu sahələrdə çox ciddi dövlət dəstəyi olmalıdır və beləliklə, biz yığılan məhsulun həcmini artırmalıyıq. Fındıq istehsalında Azərbaycan dünya miqyasında 3-cü-4-cü yerdədir. Bizim məhsulumuza çox böyük tələbat var. Təkcə şimal-qərb zonasında deyil, bir çox rayonlarda fındıq istehsalı mümkündür. Ona görə, bütün rayonlar üzrə araşdırmalar aparılmalıdır, harada münbit iqlim şəraiti var dövlət burada çox ciddi dəstəyini göstərməlidir ki, fındıqçılıq sürətlə inkişaf etsin və insanlar daha çox pul qazansınlar.

Hazırda Azərbaycanda istixanaların tikintisi çox geniş vüsət alıb. Bu da çox sevindirici haldır. İş adamları buna böyük vəsait qoyurlar. Dövlət də öz dəstəyini verir və bu, bizim ixrac potensialımıza çox müsbət təsir göstərir. Burada kənd təsərrüfatı naziri qeyd etdi ki, qiymətlər aşağı düşür, eyni zamanda, kənd təsərrüfatı məhsullarının ixracı 27 faiz artıb. Bu, çox böyük rəqəmdir. İdxal da azalıb.

İdxal, məncə, ümumiyyətlə, bir anlayış kimi olmamalıdır. Ancaq indi biz yəqin ki, idxala çeşidlərin müxtəlifliyinə görə yol verməliyik. Çünki bəzi insanlar xarici mallara öyrəşib, onları daha çox üstün tutur. Ona görə, biz idxalı dayandıra bilmərik. Ancaq gömrük rüsumları elə tətbiq edilməlidir ki, yerli məhsullara hər kəs üstünlük versin. Birincisi, yerli məhsullardan əldə edilən vəsait Azərbaycanda qalır. İkincisi, yerli məhsul keyfiyyətlidir. Orada heç bir kimyəvi, yaxud da ki, insan orqanizmi üçün təhlükəli maddələr yoxdur. Xarici məhsulların bəzilərində, əfsuslar olsun ki, belə maddələr var. Yerli istehsalı sürətləndirmək, artırmaq üçün, əlbəttə, biz tənzimləyici tədbirlər də görməliyik. Ümumiyyətlə, Azərbaycan kimi ölkədə kənd təsərrüfatı məhsullarının idxalı mənə bir az qəribə görünür. Ona görə, biz həm keyfiyyətli məhsul yetişdirməliyik, həm özümüzü tam təmin etməliyik və əlbəttə ki, daxili bazarımızı qorumalıyıq.

Burada kənd təsərrüfatı naziri qeyd etdi ki, heyvandarlığın inkişafı da yeni mərhələyə qədəm qoyur, yeni yanaşma tətbiq edilir. Biz əvvəlki illərdə cins mal-qaranı alırdıq, fermerlərə paylayırdıq. Bunun müsbət təsiri olmuşdur, çünki cins mal-qaranın məhsuldarlığı əlbəttə ki, daha da yüksəkdir. Həm südlük, həm ətlik mal-qaranın gətirilməsi də çox müsbət təsir göstərmişdir. İndi biz yeni dövrə keçirik, mövcud mal-qaranın cinsini süni mayalanma yolu ilə yaxşılaşdıracağıq. Buna bir neçə il vaxt lazım olacaq. Bütün lazımi tədbirlər görülüb və qeyd olunduğu kimi, Prezidentin ehtiyat fondundan həm bu sahəyə, həm toxumçuluğa kifayət qədər böyük vəsait ayrılıb. Əminəm ki, burada da çox ciddi irəliləyiş olacaqdır. Burada biz bir neçə məqsədi güdürük. İlk növbədə, bundan sonra da tam şəkildə özümüzü ətlə, südlə və süd məhsulları ilə təmin edəcəyik. İkinci vəzifə - bizdə ixrac potensialı yaranır. Üçüncüsü, biz artıq örüş torpaqlarından digər bitkiləri yetişdirmək üçün istifadə edəcəyik. Çünki hər qarış torpaq bizim üçün qiymətli olmalıdır. Yenə də qayıdıram əvvəlki fikrimə ki, torpaqlardan səmərəsiz istifadəyə yol verilməməlidir. Ona görə, heyvandarlığın müasir yollarla inkişafı bitkiçiliyə də çox müsbət təsir göstərəcək. Bitkiçilik üçün nəzərdə tutulacaq o torpaqlarda əlbəttə ki, meliorativ tədbirlər də paralel şəkildə aparılmalıdır. Bu il Prezidentin ehtiyat fondundan subartezian quyuların qazılmasına vəsait ayrılıb. Bu, kəndliləri həm içməli su ilə təmin edir, həm də ki, bunun əkin sahələrinə də faydası var. Bu il qazılacaq subartezian quyuların hesabına 3 min hektar torpağın suvarılması təmin ediləcək. Biz bu yolla getməliyik və Dövlət İnvestisiya Proqramında meliorativ tədbirlərin görülməsinə bundan sonra da vəsait ayrılmalıdır. Əgər lazım olarsa, biz bu il də bu məsələyə baxmalıyıq. Çünki bizim həm büdcəmizdə vəsait var. Eyni zamanda, Dövlət Neft Fondunda manat vəsaiti var. Dövlət Neft Fondu bazarda dollar satır. İndi manat ehtiyatı yaranıb. Qoy hökumət təklif versin biz bu vəsaitdən necə istifadə edək ki, lazım olan tədbirləri həll edək və vaxt itirməyək.

Azərbaycanda aqroparkların yaradılması başlayıb, həm Yalamada, həm Şəmkirdə. Bu, yaxşı haldır, amma bu, azdır. Bütün bölgələrdə bir neçə aqropark yaradılmalıdır. Bunun çox böyük mənası, faydası

var. Hesab edirəm ki, İqtisadiyyat Nazirliyi kreditlərin verilməsində bu məsələni diqqətdə saxlamalıdır. Kənd Təsərrüfatı Nazirliyi və sahibkarlar da bu işlərə qoşulsunlar. Düzdür, aqroparkların yaradılması böyük vəsait tələb edir, ancaq burada sahibkarlar kooperasiya edə, konsorsium yarada bilərlər. Çünki bu, daha mütərəqqi yanaşmadır. Yalamada aqroparkın yaradılması artıq başa çatmaq üzrədir. Şəmkirdə də işlər qrafik üzrə gedir.

Sahibkarlığın inkişafına dövlət bundan sonra da öz dəstəyini verəcək. Bu il sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verilib. Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabına verilib. Bu da çox müsbət haldır, dövlət büdcəsinə daha az yük düşür və kreditlərin 80 faizi aqrar sektora verilib. Bu da bizim siyasətimizi əks etdirir. Kreditlərin 74 faizi regionlara verilir. Regional inkişaf proqramının icrası sürətlə davam etdirilir.

Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar. Bu məqsədlə təşviq mexanizmi artıq tətbiq olunur. Mən əminəm ki, bunun çox müsbət təsiri olacaq və sahibkarlar da bundan istifadə edəcəklər. Yəni, bir sözlə, dövlət həm əkin sahələrinə, həm yanacağa, həm gübrəyə subsidiyalar, sahibkarlara aşağı faizlə güzəştli şərtlərlə 1 milyard manatdan çox kreditlər verir. Dövlət sahibkarlara tövsiyələr verir, metodik sənədlər təqdim edir ki, onlar öz biznesini necə qursunlar. Dövlət kənd təsərrüfatı texnikasını alır, aqrolizinq yolu ilə fermerlərə verir, gübrə zavodunu tikir, – indi pestisid zavodunun tikintisi də nəzərdə tutulur, – suvarma işlərini təmin edir, yüz milyonlarla, milyardlarla manat dəyərində olan böyük Şəmkirçay, Taxtakörpü su anbarlarını yaradır, dağ çaylarının kanallar vasitəsilə bu anbarlara qoşulmasını təmin edir. Eyni zamanda, dövlət fermerlərdən xaricə göndərmək üçün yardım formasında məhsulu almağa da hazırdır.

Yəni, dövlət hər şey edir. Hansı başqa ölkədə fermerlərə bu qədər dəstək göstərilir?! Fermerlər vergilərdən ancaq torpaq vergisi verirlər, bütün başqa vergilərdən azaddırlar. Yəni, ikinci belə ölkə tapmaq mümkün deyil ki, dövlət bu qədər dəstək göstərir. Əlbəttə ki, biz nəticə gözləyirik. Nəticə də elə fermerlərin xeyridir. Qoy, onlar daha da yaxşı yaşasınlar, daha da çox pul qazansınlar, iş görsünlər, investisiya qoysunlar və ixrac potensialımızı artırsınlar. Əminəm ki, biz bu yolla Azərbaycanı müasir kənd təsərrüfatı məhsullarının ixracını təşkil edən bir ölkə kimi dünyada təqdim edəcəyik. Əlbəttə ki, biz yeni bazarlara çıxmalıyıq. Ənənəvi bazarlar var, çox yaxşıdır. Biz çalışmalıyıq ki, inkişaf etmiş ölkələrin bazarlarına çıxaq. Buna da nail olmaq üçün əlbəttə ki, keyfiyyət və standartlaşma ən yüksək səviyyədə olmalıdır.

Valyuta gətirən sahələrdən biri də turizmdir. Biz burada da çox böyük nəticələr gözləyirik. Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Azərbaycanın dünyada tanıdılması istiqamətində çox böyük işlər görülüb. Azərbaycanda dünyanın diqqətini cəlb edən beynəlxalq tədbirlər keçirilir. Misal üçün, bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir. Dünya miqyaslı tədbirdir. Bir neçə il bundan əvvəl “Eurovision”, keçən il Avropa Oyunları böyük marağa səbəb olmuşdur. Yəni, Azərbaycanı artıq tanıyırlar. Əlbəttə ki, ölkəmizin tanıdılmasında Formula-1 yarışının xüsusi yeri var. Çünki bu yarışın auditoriyası 500 milyon insandır. Formula-1 yarışı futbol üzrə dünya çempionatı və Yay Olimpiya Oyunlarının səviyyəsində olan tədbirdir, onlardan geri qalmır. Əgər dünya çempionatı və Olimpiya Oyunları bir şəhərdə bir dəfə keçirilirsə, yaxud da ki, indi bəlkə də əlli ildə iki dəfə keçirilirsə, Formula-1 yarışı Azərbaycanda ən azı bundan sonra dörd il keçiriləcəkdir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu, şəhər yarışıdır və Bakının gözəlliyi 500 milyon insan üçün artıq təqdim olunub.

Bu, turizmin inkişafına çox böyük təkan verəcək və verməlidir. Biz də buna hazır olmalıyıq. Bu tədbirləri biz keçiririk. Ölkəmizi dünyada tanıtdırmaq üçün tədbirlər görülür. Biz vizalarla bağlı problemləri də bu yaxınlarda aradan götürmüşük. “ASAN viza” xidməti yaradılır. Üç gün ərzində Bakıya turist kimi gəlmək istəyən heç bir maneəsiz, problemsiz və başqa bir iddiasız vizanı alıb gələcək.

Əsas məsələ turizm sənayesini yaratmaqdır - həm daxili turizm, həm də xarici qonaqları qəbul etmək üçün. Bizim gözəl iqlimimiz, yay aylarında Xəzər sahili, qış aylarında dağlar, xizək kurortları var. Bizim çoxlu tarixi abidələrimiz var. Nəinki Bakıda, bütün bölgələrdə müasir infrastruktur, otellər, yollar var. Ona görə bu istiqamətdə görüləsi işlər hələ çoxdur.

Mən “ASAN viza”nı qeyd etdim. Qeyd etməliyəm ki, “ASAN xidmət” mərkəzlərinə bu illər ərzində 10

milyon müraciət olub. Bu 10 milyon müraciət artıq özlüyündə bir göstəricidir. Mən bunu şərh etmək istəmirəm. Hamımız yaxşı bilirik ki, "ASAN xidmət"-lərdə ən yüksək səviyyədə xidmət göstərilir. Bürokratiya, süründürməçilik, rüşvət almaq yoxdur. Təmiz, şəffaf, mədəni xidmət göstərilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olub. Artıq 9 mərkəz yaradılıb, beşi Bakıda, dördü bölgələrdə - Sumqayıtda, Gəncədə, Sabirabadda və Bərdədə. Bu il iki yeni mərkəz yaradılacaq - Masallıda və Qəbələdə. On səyyar avtobus fəaliyyət göstərir. Artıq yeni bir layihə – "ASAN qatar" sistemi də fəaliyyətə başlayacaq, yəni, qatarlar vasitəsilə xidmət göstəriləcək.

Ümumiyyətlə, bu sahədə aparılan islahatlar öz səmərəsini verir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə öz nəticəsini verir. Həm inzibati tədbirlər, cəza tədbirləri və struktur xarakterli tədbirlər də görüləcək.

Mən bir rəqəmi də ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, yoxlamalarla bağlı mənim çox ciddi tapşırıqlarım olmuşdur. Bu yoxlamalar insanları demək olar ki, bezdirmişdi, imkan vermirdi ki, sahibkarlar rahat nəfəs alsınlar. Çox ciddi göstərişlər, tapşırıqlar verilmişdir. Bu ilin altı ayında vergi yoxlamaları istisna olmaqla cəmi 56 yoxlama keçirilmişdir. Müqayisə üçün deyim ki, keçən il 40 min yoxlama keçirilmişdir. Baxın, 40 min və 56. Burada da heç bir şərhə ehtiyac yoxdur. Bax, belə olmalıdır. Amma bu 40 min yoxlamanın arxasında nələr dayanır?! Bunu bu yoxlamalara məruz qalmış insanlar yaxşı bilirlər. Biz onların canını bu işlərdən qurtardıq.

Ona görə, hər bir sahədə belə olmalıdır. Şəffaflıq, dürüstlük, təmizlik - bu, norma olmalıdır. Mən indi bunu, sözün düzü, qürur hissi ilə qeyd edirəm. Amma bu, norma olmalıdır. Norma bu olmalıdır, 40 min yoxlama norma olmamalıdır.

Bu il daha bir ciddi sosial təşəbbüs irəli sürüldü. Aztəminatlı ailələr üçün ucuz mənzillərin inşası prosesi artıq başlayır. Mənzil İnşaatı Dövlət Agentliyi – MİDA yaradıldı. İndi təşkilati məsələlər öz həllini tapmaqdadır. Torpaq sahələri ayrılır və tezliklə MİDA öz işinə başlamalıdır, mənzillər tikilməlidir. Bu mənzillər uzunmüddətli güzəştli şərtlərlə aztəminatlı vətəndaşlara veriləcək. Bu, çox ciddi sosial təşəbbüsdür. Bu, geniş vüsət almalıdır. Hər bir bölgədə, hər bir rayonda buna ehtiyac var. Eyni zamanda, bu təşəbbüs, bu layihə inşaat sektoruna da çox ciddi təsir göstərəcək. Çünki inşaat sektorunda çox böyük geriləmə var və iş yerlərinin itirilməsi də məhz inşaat sektorunda baş vermişdir.

Ona görə geniş tikinti layihələri gözlənilir. Bunun çox müsbət təsiri olacaq, məşğulluq artacaq və inşaat materialları sektoru da canlanacaq. Ona görə o sahibkarlar da buna hazır olmalıdırlar. Bu, uzunmüddətli bir layihədir. Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti bu il başlayır və davam edəcək. Ona görə bütün inşaat materialları Azərbaycanda istehsal olunmalıdır. Onların böyük hissəsi istehsal olunur. Ancaq indi həcm, tələbat artacaq. Özəl sektor da hazır olsun və öz işlərini elə qursun ki, bizim bu inkişaf planlarımızı təmin edə bilsin. Yoxsa, belə olmasa, onda biz gərək inşaat materiallarını xaricdən alaq. Ona da əlbəttə ki, biz getmək istəmirik.

Bu ilin əvvəlindən infrastruktur layihələri icra edilir. Qeyd etməliyəm ki, magistral yollarda işlər gedir. Gəncə-Gürcüstan sərhədi yolu dörd zolağa çevrilir. Genişlənmə işləri gedir. Bu il Rusiya sərhədinə qədər magistral yolda böyük işlər görülməlidir. Bizim qurumlar çalışmalıdırlar ki, bu yolu da başa çatdırsınlar. Bakı-Şamaxı yolunun dörd zolağa çevrilməsi prosesi gedir və Bakı-İran sərhədi magistral yolunda da tikinti işləri davam edir.

Bununla bərabər, kənd yollarının tikintisi çox sürətlə aparılır. Bu məqsədlər üçün dövlət büdcəsindən 200 milyon manat vəsait ayrılıb. Təxminən 60-70 kənd yolu layihəsi o cümlədən Bakı qəsəbələrində icra edilir və ediləcək. Bunun da çox böyük təsiri olacaq. Həm infrastruktur yaradılır, həm də iş yerləri. Bu layihələrdə on minlərlə insan işlə təmin edilir. Bu proses gələn il də davam etdiriləcək. Artıq yəqin ki, bir neçə aydan sonra gələn ilin layihələri mənə təqdim edilməlidir.

İçməli su layihələrinin icrası bütün ölkəmizdə aparılır. Bir çox rayonlarda artıq bu, həll olunub. Hər bir rayon mərkəzində içməli su və kanalizasiya layihəsi tam icra edilməlidir.

Qarşımızda duran əsas vəzifələr bundan ibarətdir. Mən bir daha demək istəyirəm ki, 2016-cı ilin birinci yarısının yekunları məni qane edir. Biz böhran şəraitində inkişaf edirik. Əsas məsələ ondan ibarətdir ki, bizim hər bir sahədə çox aydın proqramlarımız var. Hələ bir çox sahələr var ki, sadəcə olaraq, vaxt yoxdur bu barədə danışım. Amma hər bir sahədə konkret proqramlar var. Amma gələcək fəaliyyətimiz üçün əsas sənaye istehsalı və kənd təsərrüfatıdır. Əminəm ki, verdiyim bütün tapşırıqlar yerinə yetiriləcək, biz bu ili də uğurla başa vuracağıq. Sağ olun.

# Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbriki

**Ramazan bayramı munasibətilə Azərbaycan xalqına təbrik**

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı, 4 iyul 2016-cı il.

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir

**2016-cı ilin birinci yarımilində görülmüş işlərin vəziyyətinə dair əməliyyat müşavirəsi**



İyulun 30-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanları tərəfindən 2016-cı ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov bildirmişdir ki, 2016-cı ilin birinci yarısında ölkə həyatının bütün sahələrində dinamik inkişaf yüksək templərlə davam etmiş, hüquqi-demokratik islahatlar, böyük infrastruktur layihələri və sosial yönümlü proqramlar uğurla həyata keçirilmiş, vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli inkişafına, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirilmiş dövlətçilik siyasəti öz müsbət nəticələrini vermişdir. Əldə edilən nailiyyətlərin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu daxili və xarici siyasət tədbirləri təşkil etmişdir.

Xüsusi qeyd edilmişdir ki, Azərbaycan Respublikasının beynəlxalq əhəmiyyətli və genişmiqyaslı tədbirlərə ev sahibliyi etməsi ölkəmizdə həyata keçirilən sürətli sosial-iqtisadi inkişafın, vətəndaşların sosial rifahının ilbəil daha da yaxşılaşmasının, beynəlxalq standartlara uyğun müasir dövlətin və vətəndaş cəmiyyətinin qurulması zəminində reallaşdırılan, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanmasına və möhkəmlənməsinə nail olmağa yönəlmiş xarici siyasətin nəticəsində mümkün olmuşdur. Bildirilmişdir ki, ölkənin hüquq mühafizə orqanları Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə respublikanın müxtəlif yerlərində keçirilmiş beynəlxalq tədbirlərdə, o cümlədən müasir stan-

dartlara cavab verən böyük təşkilatçılıq səviyyəsində baş tutmuş "Formula - 1 Avropa Qran-Pri" yarışlarında ictimai asayiş və təhlükəsizliyi yüksək səviyyədə qorumuşdur.

Diqqətə çatdırılmışdır ki, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclisin "28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 20 may 2016-cı il tarixli qərarının Prokurorluq orqanları tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əlaqəli şəkildə icra olunması istiqamətində zəruri işlər davam etdirilməklə amnistiya aktı hazırkı vaxtadək 9 minə yaxın şəxsə tətbiq olunmuşdur.

Bildirilmişdir ki, hesabat dövründə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları, ilk növbədə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuş, prokurorluq orqanlarında hərtərəfli islahatlar prosesi yeni müstəvidə davam etdirilmiş, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

2016-cı ilin birinci yarımilində əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyektləri üzrə 14 min 251 cinayət qeydə alınmış, bu cinayətlərin 85,6%-i böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 14,4%-i ağır və xüsusilə ağır növlər təşkil etmişdir. Həyata keçirilən məqsədyönlü qabaqlayıcı tədbirlər nəticəsində qəsdən adam öldürmə, zorlama, xuliqanlıq, avtonəqliyyatın qaçırılması, yol-nəqliyyat hadisələri, qəzalarda həlak olanların və xəsarət alanların sayı əhəmiyyətli dərəcədə azalmışdır. Adam oğurluğu, zorlama, seksual xarakterli zorakılıq hərəkətləri cinayətlərinin açılması tam təmin edilmiş, keçmiş illərdən bağlı qalmış 205 cinayət açılmışdır. Törədilmiş əmələ görə cəzanın labüdlüyünün təmini işi də nəzarətdə saxlanılmış, müxtəlif cinayətlər törətmiş 7003, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 1121 nəfər məhkəmə məsuliyyətinə cəlb edilmiş, istintaq və məhkəmə orqanlarından yayınan 1536 nəfər tutulmuşdur.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 611 ağır və xüsusilə ağır cinayət törətmiş 134 cinayətkar qrup zərərsizləşdirilmişdir. İstintaqı tamamlanmış cinayət işləri üzrə hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödətdirilməsi işinin nəticələri 7,9% yaxşılaşaraq 85,6% təşkil etmişdir.

2016-cı ilin birinci yarımilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması, onları törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmışdır. Qeyd edilən tədbirlərin, habelə prokurorluğun Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməliyyat qurumları ilə həyata keçirdiyi əlaqəli işin nəticəsində qeydə alınmış 87 qəsdən adam öldürmə cinayətlərindən 85 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş 42 hadisənin isti izlərlə açılması təmin olunmaqla, həmin cinayətlərin açılması 97,7% (2015-ci ilin müvafiq dövründə 98,9 %) təşkil etmişdir.

Xüsusi qeyd edilmişdir ki, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə və yüksək peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində əvvəlki illərdə Xaçmaz və Bərdə rayonlarında törədilməklə bağlı qalan 2 qəsdən adam öldürmə cinayətlərindən 1-nin açılması təmin edilmiş, Bərdə rayonunda törədilməklə bağlı qalmış cinayətin açılması, təqsirkar şəxslərin müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində zəruri istintaq və əməliyyat-axtarış işlərinin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Cari il aprelin əvvəlində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini və beynəlxalq hüquq normalarının tələblərini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu ərazilərində, əsasən Ağdam, Tərtər, Goranboy, Füzuli və Ağcabədi rayonlarında yerləşən yaşayış məntəqələrini və mülki obyektləri iri çaplı silahlardan, mina və qumbaraatanlardan, artilleriya qurğularından intensiv atəşə tutmaları nəticəsində 6 nəfər mülki şəxs ölmüş, 25 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, artilleriya qurğularından atılmış mərmi zərbələri nəticəsində vətəndaşların 641 yaşayış evinə və 22 sosial obyektə ziyan dəymiş

və ya onlar dağıdılaraq tam yararsız hala salınmışdır.

Ermənistan tərəfindən silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması, eləcə də mülki əhalinin milli zəmində düşmənçilik niyyətilə qəsdən öldürülməsi və digər faktlara görə Ağdam, Tərtər, Goranboy, Füzuli və Ağcabədi rayon prokurorluqlarında dərhal Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanaraq qısa müddətdə təxirəsalınmaz istintaq hərəkətlərinin yerinə yetirilməsi üçün istintaq-əməliyyat qrupları yaradılmışdır.

Cinayət işləri üzrə dağıdılmış evlərə və sosial obyektlərə müvafiq komissiyaların üzvlərinin iştirakı ilə müasir texniki vasitələrdən istifadə etməklə hərtərəfli baxış keçirilmiş, Ermənistan silahlı qüvvələrinin törətdikləri cinayətləri təsdiq edən maddi sübutlar aşkar edilərək götürülmüş, dəymiş ziyanının məbləğinin, mülki şəxslərin ölümünün səbəblərinin müəyyən edilməsi üçün müvafiq ekspertizalar keçirilməklə rəylər alınmış, çoxsaylı zərərçəkmiş şəxslər və şahidlər dindirilmiş, erməni vəhşiliklərini sübut edən zəruri sənədlər əldə olunaraq cinayət işlərinin materiallarına əlavə edilmişdir. Hazırda həmin cinayət işləri üzrə istintaq tədbirləri davam etdirilir.

Bildirilmişdir ki, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya cinayətlərinə qarşı mübarizənin tam yeni müstəviyə qaldırılması prokurorluq orqanlarının qarşısında duran ən əsas vəzifələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq ötən dövrlərdə olduğu kimi 2016-cı ilin birinci yarısında da Azərbaycan Respublikasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri uğurla davam etdirilmişdir.

Bildirilmişdir ki, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradənin göstəricisi olaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi, əlaqəli dövlət orqanları ilə birlikdə korrupsiya şəbəkələrinin aşkar edilməsi istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur. Həmin vəzifələrin icrası ilə əlaqədar Baş prokuror tərəfindən 19 may 2016-cı il tarixdə Tədbirlər Planı təsdiq edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində "ASAN" xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Korrupsiya hallarına qarşı mübarizə işinin düzgün təşkilində 161 saylı „Qaynar xətt" əlaqə mərkəzinin yaradılmasının müstəsna əhəmiyyəti xüsusi qeyd olunmuşdur. Baş idarə tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının yayıldığı idarəçilik və xidmət sahələrinin aşkar edilməsi, təqsirli şəxslərin ifşa edilməsi, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir. Bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyi nəzərə alınaraq hesabat dövründə bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə önəm verilmişdir.

Rüşvətlə bağlı, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə, qulluq mövqeyindən istifadə etməklə dələduzluq, vəzifə saxtakarlığı və sair faktlar üzrə 143 şəxs barəsində 100 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 9 milyon 785 min manat ziyandan istintaq müddətində 3 milyon 151 min manatın ödətdirilməsi təmin olunmuş, qalan ziyanın ödətdirilməsi məqsədi ilə qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində qeyri-aşkar şəraitdə törədilmiş bir sıra xüsusilə ağır cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq keyfiyyətli istintaq edilməsi, cinayət törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri, eyni zamanda respublikada ictimai rezonansa səbəb

olmuş bəzi cinayət hadisələri üzrə başlanmış cinayət işlərindən 95 şəxs barəsində 39 iş üzrə yüksək peşəkarlıqla istintaqının yekunlaşdırılıaraq məhkəmələrə göndərilməsi xüsusi vurğulanmışdır.

Hesabat dövründə də kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi, kadrların seçilib yerləşdirilməsi, vəzifədə irəli çəkilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq 100 ştat vahidi üzrə prokurorluğa işə növbəti qəbulun şəffaf və ədalətli prosedurlar əsasında başa çatdırılması, prokurorluqda işləmək arzusunda olan gənclərin sıralarından ən layiqlilərinin seçilməsi barədə Baş Prokurorluğun əlaqədar qurumlarına müvafiq tapşırıqlar verən Baş prokuror Zakir Qaralov, 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr nəticəsində işə qəbul edilməklə prokurorluğun kadr korpusunun 58 faizini təşkil edən 656 gənc mütəxəssislərin müxtəlif vəzifələrdə, o cümlədən rayon prokuroru, Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi və sair kimi məsul vəzifələrdə səmərəli fəaliyyət göstərməsini ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi və prokurorluqda aparılan islahatların böyük uğuru kimi dəyərləndirmişdir.

Müşavirədə prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin görülməsinin intensivləşdirilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının funksional imkanlarının və tətbiqi dairəsinin genişləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla bu proqramların təkmilləşdirilməsinin təmin edilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində xüsusi olaraq qeyd edilmişdir ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır.

2016-cı ilin birinci yarısında müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 6 nəfər prokurorluq orqanlarından xaric edilmiş, 1 nəfər tutduğu vəzifədən azad olunmuşdur. Belə ki, xidməti və əmək intizamının kobud pozuntusu hallarına yol vermiş Səbail rayon prokurorluğunun müstəntiqi Vüsal Kazımov, İmişli rayon prokurorunun böyük köməkçisi Çingiz Quliyev, Xaçmaz rayon prokurorunun köməkçisi Tural Allahverdi və Qubadlı rayon prokurorunun köməkçisi Adil Məmmədov prokurorluq orqanlarından xaric edilmişlər.

Bundan başqa, xidməti və əmək intizamına riayət etmədiyinə, Baş Prokurorluq üzrə müvafiq əmrin tələblərinin ciddi pozuntusu hallarına yol verdiyinə görə Masallı rayon prokurorluğunun böyük müstəntiqi Elmar Əhmədli prokurorluq orqanlarından xaric edilməklə barəsində aparılmış yoxlama materialı üzrə cinayət işi başlanmışdır. Həmçinin, xidməti və icra intizamını, eləcə də Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələblərini kobud şəkildə pozduğuna görə Bakı şəhər prokurorluğunun idarə prokuroru Samir Nəsirov prokurorluq orqanlarından xaric edilməklə xidməti araşdırma materialları üzrə cinayət işi başlanmış və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda hər iki cinayət işi üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq tədbirləri davam etdirilir.

Tələb edilmişdir ki, bütün struktur qurumlarda, tabe rayon və şəhər prokurorluqlarında, ilk növbədə xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və neqativ təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Qeyd olunmuşdur ki, vətəndaşları narahat edən məsələlərin həllinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tələbi rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılmış, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik

hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal və səthi cavabların verilməsi, qəbullarının keçirilməsi qaydalarının pozulması kimi çatışmazlıqların hələ də mövcud olduğu nəzərə alınmaqla, bütün struktur qurumların rəhbərləri və tabe prokurorlardan müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün neqativ halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi tələb olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, prokurorluq orqanları tərəfindən 2016-cı ilin birinci yarısında görülmüş işlərin vəziyyəti təsdiq edilmiş cədvələ uyğun olaraq bölgələr üzrə keçirilən əməliyyat müşavirələrində müzakirə edilmiş, Baş prokurorun müavinləri, Baş Prokurorluğun Kollegiya üzvlərinin sədrliyi və tabe şəhər və rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə Gəncə şəhəri, Bərdə, Quba, Qəbələ, Neftçala, Cəlilabad və Göyçay rayonlarında keçirilmiş əməliyyat müşavirələrində hesabat dövründə görülmüş işlərin real vəziyyəti, mövcud nöqsanlar və çatışmazlıqların yaranma səbəbləri hərtərəfli və prinsipial təhlil edilmiş, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, tabe struktur qurumların fəaliyyəti üzərində Baş Prokurorluğun nəzarətinin daha da təkmilləşdirilməsi, tabe prokurorluqlarda xidməti, icra və əmək intizamının daha da yüksəldilməsi üçün konkret tədbirlər müəyyənləşdirilmişdir. Əməliyyat müşavirələrində qaldırılan və işin səmərəliliyinə mənfi təsir göstərən problemlərin aradan qaldırılması və həlli vacib məsələlərin tənzimlənməsi istiqamətində qarşıda duran konkret vəzifələr müəyyənləşdirilmiş və Baş Prokurorluğun əlaqədar struktur qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

Müşavirədə 2016-cı ilin birinci yarısında prokurorluq orqanları tərəfindən görülmüş işlər və bu məsələnin bölgə müşavirələrində müzakirəsinin nəticələri barədə Baş prokurorun birinci müavini Rüstəm Usubov məruzə etmişdir. Müzakirələrdə çıxış edən Baş prokurorun müavini, Müsabiqə Komissiyasının sədri Namiq Əsgərov hesabat dövründə prokurorluq orqanlarına müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin rəisi Anar Məmmədov vətəndaşların müraciətlərinə baxılması ilə əlaqədar dövlət başçısı tərəfindən imzalanmış normativ-hüquqi aktlardan irəli gələn vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat vermişlər.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə tapşırıqlarını bir daha xatırladaraq, dövlət başçısının bu tələblərinin yüksək səviyyədə icrasına nail olmaq üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarına və bütün tabe prokurorluqlara, ilk növbədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi, bu neqativ təzahürlərin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində bundan sonra da sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin görülməsi barədə göstərişlər vermişdir. Eyni zamanda xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsi prinsipi üzərində qurulmasının, müasir texnologiyaların tətbiqinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinin başlıca vəzifələr olaraq ardıcıllıqla həyata keçirilməsinin zəruriliyi vurğulanmışdır.

Əməliyyat müşavirəsində inam ifadə olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən yeni məzmunlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanları bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğunun Mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilmişdir

**2016-cı ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə dair kollegiya iclası**



İyulun 19-da Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2016-cı ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Muxtar Respublika Prokurorluğu 2016-cı ilin birinci yarımilində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərmişdir. Muxtar Respublika ərazisində 8 cinayət hadisəsinin qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməden qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı-profilaktiki tədbirləri daha da gücləndirməli, cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmamış, həyata keçirilmiş zəruri profilaktiki tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar, eləcə də sərxoş vəziyyətdə cinayət hadisələrinin törədilməsi halları qeydə alınmamışdır. Lakin əvvəllər məhkum olunmuşlar və narkomanlar tərəfindən cinayət hadisəsinin törədilməsi, bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra cinayət hadisələri törədilməsinin

qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktiki tədbirlərdən səmərəli istifadə edilməsini zəruru edir.

Həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində keçmiş illərdə baş verib qapalı qalmış 1 cinayət hadisəsinin açılması təmin edilmişdir. Lakin görülən işlərlə kifayətlənməməli, keçmiş illərdə baş verib qapalı qalmış bütün cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin də açılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmalıdır.

Qeyd olunmuşdur ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 2 fakt qeydə alınmışdır. Lakin Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, aşkar oluna biləcək hər bir fakt üzrə narkotik vasitənin əldə edilmə mənbəyi müəyyənləşdirilərək təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələrini təmin etməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 4 cinayət işi istintaq olunmuşdur ki, onlardan 2 iş 2015-ci ildən qalıq qalmış, 2 iş isə 2016-cı ilin birinci yarımilində başlanmışdır. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında 10 məlumat daxil olmuşdur ki, onlardan 2 məlumat üzrə cinayət işi başlanmış, 7 məlumat üzrə cinayət işinin başlanması rədd edilmiş, 1 məlumat isə istintaq aidiyyəti üzrə göndərilmişdir. Məlumatların həlli zamanı müddət və qanun pozuntusu hallarına yol verilməmişdir. Muxtar Respublika Prokurorluğunun İstintaq şöbəsi və tabe rayon (şəhər) prokurorları bundan sonra da Baş Prokurorluq üzrə «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» əmrin tələblərinə əməl edilməsi üçün bütün zəruri tədbirləri görməlidirlər.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 15 şəxs barəsində 13 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmiş, 17 şəxs barəsində 15 iş üzrə ittiham hökmləri çıxarılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 15 şəxs barəsində 13 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilmiş və həmin işlər barəsində müvafiq qərarlar qəbul olunmuşdur. Dövlət ittihamçılarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 10 şəxs barəsində 10 işə baxılaraq nəticə verilmişdir. Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin əməkdaşları görülmüş işlərlə kifayətlənməməli, öz fəaliyyətlərinin beynəlxalq standartlar səviyyəsində təşkil olunmasının əsas tələblərindən biri olan presedent hüququnun öyrənilməsi və təcrübədə nəzərə alınmasının təşkil edilməsi məqsədilə Baş Prokurorluq üzrə «Cinayət təqibi zamanı «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyanın müddəalarının, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında» və «Cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi tədbirləri barədə» əmrlərin tələblərini rəhbər tutmalı, obyektiv və ədalətli məhkəmə qərarlarının çıxarılmasını təmin etməlidirlər.

Qeyd olunmuşdur ki, daxili işlər orqanlarında 7 cinayət işi istintaq olunmuşdur ki, onlardan 3 iş ittiham aktı ilə məhkəməyə göndərilmiş, 1 işin icraatına xitam verilmiş, 3 iş isə növbəti hesabat dövrünə qalıq qalmış, müddət pozuntusu ilə cinayət işi istintaq olunmamış, istintaqı tamamlanmış işlərdən məhkəmə və prokurorluq tərəfindən əlavə istintaqa qaytarılanı olmamış, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə və tutma hallarına yol verilməmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər barədə 11 məlumat daxil olmuşdur ki, onlardan 5 məlumat üzrə cinayət işi başlanmış, 4 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 2 məlumat istintaq aidiyyəti üzrə göndərilmişdir. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 4 şəxs barəsində 4 axtarış işi olmuşdur ki, onlardan 3-ü tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 1 şəxsin tutulması isə təmin olunmadığından növbəti hesabat dövrünə qalıq qalmışdır. Axtarışda olan şəxs Naxçıvan şəhəri ərazisində olduğundan həmin şəxslərin tutulması üçün aidiyyəti şəhər prokurorluğu və digər səlahiyyətli orqanlar ciddi və təxirəsalınmaz tədbirlər görməlidirlər. Xəbərsiz itkin düşmə kimi 1

nəfər axtarışda olmuş və həmin şəxsin tapılması təmin edilmədiyindən axtarış işi qalıq qalmışdır. Muxtar Respublika üzrə 7 nəfərin ölümü ilə nəticələnən 6 yol nəqliyyat hadisəsi qeydə alınmışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Dövlət Gömrük Komitəsində istintaq olunan 2 cinayət işi, Dövlət Təhlükəsizlik Xidmətində 2 cinayət işi məhkəməyə göndərilmişdir.

Qeyd olunmuşdur ki, prokurorluq orqanlarına vətəndaşlardan 14 müraciət daxil olmuşdur ki, onlardan 3-ü prokurorluqda həll edilmiş, 10-u digər təşkilatlara göndərilmiş, 1-i isə cinayət işinə əlavə edilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun elektron poçt ünvanına 2 müraciət daxil olmuşdur. Prokurorluq orqanlarında 155 nəfər müvafiq prokurorlar tərəfindən qəbul edilib dinlənilmiş, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür. Bütün bunlara baxmayaraq Prokurorluğun Müraciətlərə baxılması şöbəsi tərəfindən «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikası Qanununun və Baş prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin tələblərinə prokurorluq orqanlarında ciddi əməl edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Prokurorluq tərəfindən cinayətkarlıqla mübarizədə qanunvericiliyin izahı və profilaktiki tədbirlərlə bağlı müəyyən müsbət işlər görülmüş, prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 428 halda təbliğat aparılmış, kütləvi informasiya vasitələrində 194 dəfə, o cümlədən televiziyada 53, radioda 13, mətbuatda isə 128 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, Babək və Kəngərli rayon prokurorluqları tərəfindən mətbuatla, Naxçıvan şəhər prokurorluğu tərəfindən isə televiziya ilə əlaqələr daha səmərəli təşkil olunmuşdur. Naxçıvan televiziyasında "Qanunçuluq" televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda 12 dəfə müxtəlif hüquqi mövzularında verilişlər efirə getmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 23.05.2016-cı il tarixli 13/274 nömrəli icmal məktubunda "Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 nömrəli əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2015-ci ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub"da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur.

Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işi Baş Prokuroruq üzrə "Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında" və "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılması Qaydaları haqqında" Təlimatın təsdiq edilməsi barədə" əmrlərinə uyğun aparılmışdır.

Muxtar Respublika Prokurorunun müvafiq əmrləri ilə 1 nəfər yuxarı təsnifat vəzifəyə, 6 nəfər sınaq müddəti ilə vəzifəyə təyin olunmuşdur. Yaş həddinə görə 1 nəfər tutduğu vəzifədən azad edilməklə onun prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmiş, prokurorluq işçilərindən intizam məsuliyyətinə cəlb edilən olmamışdır. Tədris məşğələləri Baş Prokurorluq üzrə «Prokurorluq işçilərinin ixtisaslarının artırılması, attestasiya olunması işinin təkmilləşdirilməsi haqqında» və Naxçıvan Muxtar Respublikası Prokurorunun əmrləri əsasında keçirilmişdir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Şəmkir şəhərində vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov iyulun 29-da Şəmkir rayon prokurorluğunun inzibati binasında Şəmkir, Tovuz, Ağstafa, Qazax və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Şəmkir rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 24 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

## Baş prokuror Balakən şəhərində vətəndaşları qəbul etmişdir



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov avqustun 26-da Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Şəki, Qax, Oğuz və Qəbələ rayonlarında yaşayan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Balakən rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Qəbulda Zakir Qaralov bölgədə yaşayan 24 vətəndaşın müraciətinin həlli istiqamətində Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

# Baş prokuror Şirvan şəhərində vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov sentyabrın 23-də Şirvan şəhər prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Hacıqabul, Saatlı, Sabirabad və Salyan rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Şirvan şəhər İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş prokuror bölgədə yaşayan 20-yə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

***

Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapmış, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülmüşdür. Eyni zamanda, prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınmışdır.

Qəbullar zamanı vətəndaşlar əhaliyə göstərilən hərtərəfli qayğıya, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda yüksək sosial-iqtisadi şəraitin yaradılmasına görə dövlət başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Yekunda tabe prokurorların iştirakı ilə hər bir bölgədə müşavirə keçirilməklə, vətəndaş-məmur münasibətlərinin Prezident cənab İlham Əliyevin tələblərinə uyğun olaraq sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə bağlı konkret tapşırıqlar verilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Bolqarıstanın vitse-prezidenti xanım Marqarita Popova ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirmişdir




Sentyabrın 29-da Baş prokuror Zakir Qaralov ölkəmizdə keçirilən V Bakı Beynəlxalq Humanitar Forumla əlaqədar səfərdə olan Bolqarıstanın vitse-prezidenti, Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) İdarəetmə Şurasının sədri xanım Marqarita Popova ilə görüşmüşdür.

Baş prokuror Zakir Qaralov qonaqları salamlayaraq ölkələrimiz arasında olan və möhkəm təməllər üzərində qurulmuş siyasi, iqtisadi, elmi və mədəni əlaqələr istiqamətində qarşılıqlı münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirmişdir.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkələrimiz arasında mövcud strateji əməkdaşlığın ruhuna uyğun olaraq hər iki ölkənin prokurorluq orqanları arasında səmərəli ikitərəfli əlaqələrin inkişaf etməsindən doğan məmnunluq ifadə edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional, cinayət təqibi və qabaqlayıcı tədbirlər barədə, habelə Baş İdarənin strukturu və fəaliyyət istiqamətlərinə dair ətraflı məlumat verilmişdir.

Baş prokuror Zakir Qaralov korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini, təcrübə mübadiləsinin vacibliyini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim önəm verildiyini diqqətə çatdırmışdır.

Baş prokuror ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində, o cümlədən Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) İdarəetmə Şurasının sədri kimi fəaliyyət göstərdiyi müddət ərzində ölkəmizə ayırmış olduğu xüsusi diqqət və müsbət töfhələrinə görə, o cümlədən bu mötəbər beynəlxalq təşkilatla əməkdaşlığın inkişaf etdirilməsində göstərdiyi fəal dəstəyə



görə xanım Marqarita Popovaya minnətdarlığını bildirmişdir.

Baş İdarədə yaradılmış yüksək iş şəraitindən məmnunluğunu ifadə edən xanım Marqarita Popova ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirmiş, Azərbaycan Respublikasının nümayəndəsinin Beynəlxalq Antikorrupsiya Akademiyasının İdarəetmə Şurasının üzvlüyünə seçilməsinin önəmini vurğulamış və bundan sonra da ölkəmizə fəal dəstək verəcəyini bildirmişdir.

Sonra qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi və vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

Görüşdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı və Beynəlxalq Antikorrupsiya Akademiyasının İdarəetmə Şurasının üzvü Vüsal Hüseynov da iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı: məzmunu və elan edilməsi qaydasının təkmilləşdirilməsi perspektivləri

Məlumdur ki, düzgün mülahizə yürütmənin müəyyənlik, ziddiyyətsizlik, ardıcıllıq və sübutluluq kimi fundamental xassələrini ifadə edən formal məntiqin 4 qanundan biri “kafi əsas” qanunudur. Bu qanunun məzmunu sadədir: hər bir həqiqi fikir əsaslı olmalıdır və ya kafi əsası olmayan heç bir mülahizə həqiqi sayıla bilməz. Faktiki və nəzəri əsaslar o zaman "kafi" sayılır ki, "mülahizə" onların məntiqi nəticəsi kimi zərurətlə hasil olsun. Bu qanun hüquqi proseslərdə də aktualdır, nəinki aktual, hətta müstəsna əhəmiyyətə malikdir. Hüquqi proses çərçivəsində qəbul edilən bütün qərarlar kafi əsasa malik olmalıdır. Bəzi hallarda bu tələb hüquq normalarının özündə qeyd edilir.

Belə hallardan biri də şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərardır. Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 223.1-ci maddəsində müəyyən edilib ki, "Şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün “əsas” cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusudur". Yəni, "ilkin sübutlar" təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının "əsas"ını təşkil edir. Həmin "sübutlar olduqda müstəntiq şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır" (CPM-nin 223.2-ci maddəsi).

Bura qədər qeyd edilənlərdən aydın və birmənalı nəticə hasil olur ki, təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarın məzmununda, daha dəqiq desək, onun təsviri-əsaslandırıcı hissəsində "ilkin sübutlar"a yer verilməli, onların məzmunu açılmalı, müstəntiqin onlara verdiyi qiymət göstərilməlidir. Lakin şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilməli məlumatlar sırasında (CPM-nin 223.3-cü maddəsi) "cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu" yoxdur. Əslində, həmin qərarın məzmununun “kafi əsas” qanununa uyğun hazırlanması üçün orada da “cinayətin konkret şəxs tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutlar”ın göstərilməsi normativləşdirilməli idi. Bunun əvəzinə təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı və onun şəxsiyyəti barədə digər məlumatlar "hüquqi əhəmiyyət kəsb edən" statusa layiq görülmüş, lakin “cinayətin bu şəxs tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutlar” bu statusa layiq bilinməmişdir. Qəribə məntiqdir.

"İlkin sübutların məcmusu"nun qeyd edilən qərarda göstərilməsi cinayət prosesinin ruhundan irəli gəlir, sağlam düşüncəyə və məntiqə uyğundur. CPM-nin digər normalarında bu, açıq-aşkar görünür. Məsələn, CPM-nin 223.6-cı maddəsində göstərilir ki, "Qərarın surəti onun qəbul edildiyi andan 24 saat müddətində müstəntiq tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir". Bu Məcəllənin 224.3-cü maddəsində qeyd edilir ki, müstəntiq tərəfindən ittiham elan edilərkən "Təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarın surəti, habelə hüquq və vəzifələrə dair yazılı bildiriş təqsirləndirilən şəxsə verilir" (CPM-nin 91.5.29-cu maddəsində təqsirləndirilən şəxsin belə hüququ nəzərdə tutulub). Bu barədə hətta ayrıca protokol tərtib edilir. Ortaya sual çıxır: təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının surətinin prokurora və təqsirləndirilən şəxsə verilməsi qaydasının təyinatı nədir? Qərar onlara hansı məqsədlə verilir? Məqsədsiz prosessual qayda yoxdur, hər bir qaydanın bir hədəfi olmalıdır.

Bu suala cavab axtarışı CPM-nin 91.5.30-cu maddəsindən başlamaq gərəkdir; orada deyilir ki, təqsirləndirilən şəxsin "təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarlarından, yaxud hərəkətlərindən şikayət etmək" hüququ var. Şikayət ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir (CPM-nin 122.2.1-ci maddəsi). İcraatında belə şikayət olan prokuror mütləq qaydada onun dəlillərini araşdırmalı, onları dəyərləndirilməli, qərar qəbul edib şikayətçiyə cavab verməlidir. Bunları yerinə yetirmək üçün prokuror müstəntiqin şikayət olunan qərarının, o cümlədən təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının məzmunundakı məlumatlardan istifadə edir. Başqa sözlə, həmin qərarın məzmunu şikayətin dəlillərini dəyərləndirmək üçün *kifayət* etməlidir. CPM-nin 122.10-cu maddəsində vurğulanıb ki, "Cinayət prosesini həyata keçirən orqan şikayətin dəlilləri üzrə əsaslandırılmış qərar qəbul edir və bu barədə şikayətçiyə yazılı məlumat verir". Şikayət üzrə əsaslandırılmış qərar qəbul etmək üçün şikayət olunan təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının özünün də

"əsaslar"ı (qanun normasına görə, ilkin sübutların məcmusu) olmalıdır. Nəzərə almaq lazımdır ki, qanun norması prosessual qərarlardan verilən şikayətin məzmununa heç bir məhdudiyyət qoymayıb. Məsələn, təqsirləndirilən şəxs qismində cəlb etmə qərardan təqsirləndirilən şəxsin şikayətinin məzmununda "ilkin sübutların məcmusu" bütövlükdə və ya qismən mübahisələndirilə bilər. Belə şikayət üzrə "əsaslandırılmış qərar" qəbul etmək üçün prokurorun sərəncamında yalnız təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının surəti olur, başqa mənbələrdən istifadə nəzərdə tutulmayıb. Həmin qərarda isə "ilkin dəlillərin məcmusu" göstərilmir. Prokurorun apardığı "nəzarət icraatı" materiallarında da ilkin sübutlara dair sənədlər saxlanılmır. Düzdür, prokuror prosessual rəhbər kimi cinayət işinin icraat materiallarından da istifadə edə bilər, lakin bu, qanunda nəzərdə tutulmamış, "qeyri-prosessual" addım olacaq. Digər tərəfdən, həmin sübutlarla təqsirləndirilən şəxs tanış edilməyib, onların məzmunundan bixəbərdir, çox güman ki şikayətdə də həmin sənədlərin məzmunu ilə bağlı heç bir şey göstərilməyəcək. Beləliklə, şikayət üzrə icraat aparan prokuror yalnız təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının surətindən bəhrələnə bilər. Səmərəli prokuror nəzarəti, prosessual rəhbərlik həyata keçirmək üçün prokurora da təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının "əsaslandırılmış qərar" olması, yəni qərarın təsviri-əsaslandırıcı hissəsində "cinayətin onun (təqsirləndirilən şəxsin – N.B.) tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu"nun olması vacibdir.

Bunlar prokurorun *şikayət üzrə* təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı ilə apardığı iş barədədir. Lakin deyilənlərin hamısı prokurorun *prokuror nəzarətinin həyata keçirilməsi qaydasında* apardığı işə də aiddir. Buna əmin olmaq üçün CPM-nin 84.5.8-ci maddəsinə nəzər salmaq kifayətdir, orada göstərilib ki, prokuror ibtidai istintaqa nəzarət edərkən müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququnu həyata keçirir.

Beləliklə, təqsirləndirilən şəxs qismində cəlb etmə qərarının surətinin təqsirləndirilən şəxsə və prokurora göndərilməsinin məqsədi bu şəxslərin öz hüquq və vəzifələrini, səlahiyyətlərini daha dolğun və səmərəli həyata keçirməkdir. Onların biri bu qərardan inzibati və məhkəmə nəzarəti qaydasında şikayət verməklə özünü müdafiə edir, digəri onun qanuniliyini və əsaslılığını yoxlamaqla ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirir. Prosessual funksiyaların səmərəli həyata keçirilməsi baxımından bu qayda hər iki subyekt üçün önəmlidir.

Cinayət prosesində hər bir qərarın bu və ya digər çəkidə əhəmiyyəti var. Onları tutuşdurmaq çətin məsələdir. Bununla belə bəzi qərarların digərlərindən daha önəmli olmasını asanlıqla görmək mümkündür. Burada meyar kimi həmin qərarların cinayət təqibinə məruz qalan şəxsin fundamental hüquqlarının məhdudlaşdırılmasına təsir imkanları götürülə bilər. Məsələn, fakta görə cinayət işi başlanması özlüyündə şəxsin hüquqlarının həcminə və onların müdafiəsi hüdudlarına əhəmiyyətli təsir etmir. Lakin bu qərardan fərqli olaraq təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı belə təsir imkanlarına malikdir. Bu qərar çıxarıldıqdan sonra şəxsin statusunda nəinki formal-hüquqi dəyişiklik baş verir, həm də bundan sonra onun barəsində fərdi hüquqları məhdudlaşdırıcı prosessual tədbirlərin tətbiqi mümkün olur, məsələn, prosessual məcburiyyət tədbirləri həyata keçirilməsi imkanı yaranır. CPM-nin 12.4-cü maddəsində qeyd edilib ki, "Prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə əlaqədar şəxsin Konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması barədə qərar yalnız zərurət olduqda bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada qəbul edilə bilər". Deməli, qərar çıxarılıbsa, yəqin "zərurət" olub, məsələn, şəxs təqsirləndirilən şəxs qismində cəlb edilibsə, görünür, buna zərurət olub, bundan sonra onun "hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması"na yol açıqdır. Götürək, şəxsin azadlıq hüququnu. Qanun normasına görə, "həbs və ya ona alternativ olan qətimkan tədbirinin seçilməsi, yaxud bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması və ya bundan imtina barədə" qərarı hakim yalnız təqsirləndirilən şəxsin barəsində çıxara bilər (CPM-nin 448.1.3-cü maddəsi). Başqası barədə o, bunu edə bilmir.

Prosesdəki əhəmiyyətinə baxmayaraq, təqibə məruz qalan şəxsin təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı ilə bağlı səmərəli müdafiə imkanlarına malik olmasını söyləmək mümkün deyil. Burada çəkişmə prinsipinin elementləri çox zəif hiss olunur, daha çox formal xarakter daşıyırlar. İlk öncə qeyd edilməlidir ki, təqsirləndirilən şəxs qismində cəlb etmə qərarından məhkəmə nəzarəti qaydasında şikayət etmək mümkün deyil (CPM-nin 449-cu maddəsi). Bu, həmin qərarın əsaslarından, yəni "ilkin sübutların məcmusu"ndan bixəbər olan şəxsin müdafiə imkanlarını daha da azaldır. Əslində, bunu başa düşmək çətindir, çünki bu qərarın qanuniliyi və əsaslılığı məsələsi onsuz da digər növ şikayətə, məsələn həbs qismində qətimkan tədbirinin

seçilməsi və ya bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılması (CPM-nin 453-cü maddəsi) zamanı istər-istəməz məhkəmə araşdırmasının predmetinə çevrilir, bu zəmində yoxlanılır. Qanun normasına görə "məhkəmə iclası başlananadək apellyasiya instansiyası məhkəməsi ona təqdim olunmuş bütün materialları əvvəlcədən öyrənir" (CPM-nin 453.4-cü maddəsi); "Həbs qismində qətimkan tədbirinin seçilməsi, habelə təqsirləndirilən şəxsin həbsdə saxlama müddətinin uzadılmasının qanuniliyini və əsaslılığını təsdiq edən materiallar məhkəmə iclasına təqdim edilmədiyi halda, apellyasiya instansiyası məhkəməsi müvafiq qərarın ləğv edilməsi və təqsirləndirilən şəxsin həbsdən azad edilməsi haqqında qərar çıxarır (CPM-nin 453.7-ci maddəsi). Məhkəmənin "öyrəndiyi", həbsin qanuniliyi və əsaslılığına dair icraat materiallarında mütləq təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı, bu qərarın çıxarılmasına əsas olmuş faktiki və hüquqi arqumentlər olur.

Bunu daha qabarıq şəkildə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) göstərir: "Həbs edilmiş şəxs tərəfindən cinayət törədilməsinə dair *əsaslı şübhə*nin olması davamlı həbsin zəruri ilkin şərtidir, (...) əsaslı şübhənin olması üçün cinayətin müvafiq şəxs tərəfindən törədildiyinə obyektiv müşahidəçini inandıra biləcək faktlar və məlumatlar olmalıdır"[1] ; "Məhkəmə vurğulayır ki, "həbsə səbəb olmuş şübhənin əsaslılığı" qanunsuz tutulmağa və həbsə alınmağa qarşı Konvensiyanın 5.1-ci maddəsinin "c" bəndində nəzərdə tutulan təminatın mühüm hissəsini təşkil edir. Bu, müvafiq şəxsin cinayət törətməsinə obyektiv müşahidəçini inandıra bilən müəyyən *faktların və ya informasiyanın* olmasını tələb edir, bununla belə, nəyin əsaslı şübhə hesab edilməsi *işin hallarından* asılıdır"[2]. "Faktlar və informasiyalar" dedikdə, məhz Azərbaycanın milli cinayət-prosessual qanunvericiliyindəki "Şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu" (CPM-nin 223.1-ci maddəsi) nəzərdə tutulur.

Qeyd edilməlidir ki, postsovet məkanında nəzəriyyəçilər arasında təsvir olunan konstruksiyanın təqsirləndirilən şəxs qismində cəlb edilən şəxsin müdafiə hüquqlarını haqsız məhdudlaşdırılması, məhdudiyyətlərin bir qədər azaldılması mövqeyində olanlar var. Onların bir qismi kompensator tədbir kimi həmin qərar elan edilən andan təqsirləndirilən şəxsə *ittiham sübutları ilə tanış olmaq hüququ* verilməsini təklif edir[3].

Avropa Məhkəməsi Rusiya Federasiyasının hüquq sisteminin azadlıq hüququnun müdafiəsi ilə bağlı neqativ xüsusiyyətlərinə toxunarkən bu hüququn məhdudlaşdırılmasına əsas olmuş faktlara hüquqi qiymət verilməsinin məhkəmə prosedurası olmamasına dəfələrlə diqqət yetirmişdir. Məhkəmənin fikrincə, RF hüquq sistemində "faktların hüquqi tövsifi və deməli, ərizəçini təhdid edən cəza təhlükəsi ehtimal olunan cinayətin ərizəçi tərəfindən törədilməsinə dair əsaslı şübhənin *toplanmış sübutlarla təsdiq edilib-edilməməsini məhkəmə qaydasında yoxlamadan keçirmədən* ittiham edən orqan tərəfindən müəyyən edilir"[4].

İngilis-sakson hüquq sistemi ölkələrində barəsində ittiham irəli sürülən şəxsin müdafiə imkanları daha genişdir; təkcə onu qeyd etmək kifayətdir ki, bu ölkələrdə şəxsə ittiham elan edilməsi prosedurası bütövlükdə məhkəmə prosedurasıdır. Bu isə tərəflərin qanun və məhkəmə qarşısında bərabər hüquqlara malik olmaqla çəkişməsini və digər təminatları nəzərdə tutur. Məsələn, ABŞ-da şəxsə qarşı ittiham elan edilməsi, onun müttəhim kimi cəlb edilməsi səlahiyyəti Böyük Jüri (andlılar) tərəfindən həyata keçirilir. Müvafiq qərarın layihəsini məhkəməyə ittihamçı təqdim edir; lakin onun mahiyyətini andlılara məhkəmənin klerki məruzə edir, onları qərarın layihəsi ilə tanış edir. Yalnız bundan sonra iclasa ittihamçı dəvət olunur. O, andlılara hər bir sübut və onların iş üçün əhəmiyyəti, eləcə də hüquqi məsələlər barədə izah verir. Böyük Jüri öz mülahizəsi ilə sübutlar tələb edə, o cümlədən əlavə şahidləri dəvət edib dindirə bilər (lakin onları cinayət məsuliyyəti təhdid altında ifadə verməyə məcbur edə bilməz). Sübutlarla tanış olandan sonra andlılar qapalı iclasda təqsirləndirilən şəxsi məhkəməyə verib-verməmək barədə qərarı müzakirə edirlər. Bu hallarda Böyük Jüri adətən 3 qərardan birini qəbul edir: 1) şəxsə qarşı feloniya (ağır dərəcəli cinayət – N.B.) törətməkdə ittiham irəli sürmək barədə; 2) cinayət

---

[1] *Bax:* Labita (LABITA) İtaliyaya qarşı məhkəmə işi (Ərizə № 26772/95) üzrə 6.04.2000-ci il tarixli qərar, p.p.153, 155.

[2] *Bax:* O'HARA (O'HARA) Birləşmiş Krallığa qarşı məhkəmə işi (Ərizə № 37555/97) üzrə 16.10.2001-ci il tarixli qərar, p.34.

[3] *Məsələn, bax:* Вишневская О. В. Состязательная деятельность защитника на предварительном следствии : дис. – Ижевск : [Удмурт. гос. ун-т], 2004.

[4] *Bax:* Xudoyarov Rusiya Federasiyasına qarşı (Khudoyorov v. Russia) məhkəmə işi üzrə (ərizə N 6847/02) 08.11.2005-ci il tarixli qərar, p.180.

işini magistrat məhkəməsinə onun misdiminor (az əhəmiyyətli cinayət – N.B.) kimi baxılması üçün geri qaytarmaq barədə; 3) cinayət təqibinə xitam vermək barədə[5].

Barəsində ittiham irəli sürülmüş şəxsə geniş müdafiə imkanlarının verilməsi tendensiyası qabaqcıl beynəlxalq cinayət prosesi standartlarına xarakterikdir. Məsələn, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6.3-cü maddəsinin "a" bəndində göstərilir ki, cinayət törətməkdə ittiham olunan hər kəs ən azı "ona qarşı irəli sürülmüş ittihamın xarakteri və *əsasları* haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq" hüququna malikdir.

Ortaya sual çıxır: burada göstərilən "ittihamın xarakteri və əsasları" nələri əhatə etməlidir? Bu sualın cavabını da Avropa Məhkəməsinin qərarlarında tapmaq olar: "Məhkəmə bir daha bildirir ki, ədalətli məhkəmə araşdırması anlayışı tərəflərin bərabərliyi prinsipini və cinayət prosesinin çəkişmə xarakteri daşımasından ibarət fundamental hüququ özündə ehtiva edir. Bu, o deməkdir ki, ittiham və müdafiə tərəflərinin digər tərəfin təqdim etdiyi qeydlərdən və *sübutlardan* xəbərdar olmalarına və onlara dair şərhlərini bildirmələrinə imkan verilməlidir"[6].

Bəziləri düşünə bilər ki, bu anlayış "ədalətli məhkəmə araşdırması" adlandırıldığından ibtidai istintaq üçün deyil, yalnız məhkəmə baxışı mərhələsi üçün aktualdır. Avropa Məhkəməsinin qərarlarında belə şübhələrə də aydınlıq gətirilir, vurğulanır ki, bu hüquq cinayət təqibinin məhkəməyəqədər mərhələsində də qüvvədədir. "Məhkəmə xatırladır ki, söhbət cinayət məsələlərindən gedirsə, hətta 6-cı maddənin başlıca məqsədi "hər hansı cinayət ittihamının" səlahiyyətli "məhkəmə" vasitəsilə ədalətli araşdırılmasını təmin etmək olsa belə, buradan heç də belə nəticə çıxmır ki, 6-cı maddə məhkəməyə qədərki icraata tətbiq edilmir. Belə ki, 6-cı maddə, xüsusən onun 3-cü bəndi, ilkin mərhələdə onun müddəalarına riayət edilməməsi ucbatından məhkəmə araşdırmasının ədalətliliyinə kifayət qədər ciddi xələl gətirilə bilərsə, iş məhkəməyə göndərilənə qədər aktual ola bilər"[7] . Avropa Məhkəməsi dəfələrlə bildirib ki, "6-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş "ağlabatan müddət" şəxsə qarşı ittiham irəli sürülən andan başlayır; bu, *işin birinci instansiya məhkəməsinə göndərildiyi vaxta qədər,* məsələn, şəxsin həbs edildiyi gün, eləcə də maraqlı şəxsin onun barəsində cinayət işi açılması və ya ibtidai istintaq başlanması barədə rəsmi qaydada məlumatlandırıldığı gün baş verə bilər"[8].

Deməli, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsi də təsbit edir ki, barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılmış (başqa sözlə, barəsində cinayət ittihamı irəli sürülmüş) şəxs bu qərarın faktiki və hüquqi əsaslarını təşkil edən arqumentlər, o cümlədən CPM-nin 223.1-ci maddəsində göstərilən, şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas rolunu oynayan, "cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu" barədə xəbərdar edilməli, ona bu sübutlara (və digər arqumentlərə) "dair şərhlərini bildirmələrinə imkan verilməlidir". Avropa Məhkəməsinin mülahizəsinə görə, qərarın mətninə daxil edilmiş ittiham dəlillərini şərh etmək üçün dolayı və ya hipotetik imkan yaradılması onların bilavasitə tədqiq edilməsi və mübahisələndirilməsinə həqiqi ekvivalent sayıla bilməz[9].

Qayıdaq CPM-nin 223-cü maddəsinə, yəni təqsirləndirilən şəxs qismində cəlb etmənin əsasını və qaydasını tənzimləyən normasına. Fikrimizcə, normanın mətnində şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas olan, cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusu şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərarın mətnində göstərilməli, ittiham elan edilən zaman isə (CPM-nin 224-cü maddəsi) sübutların özü təqsirləndirilən şəxsə təqdim olunmalı, ona bu sübutlara dair mövqeyini bildirmək, onları inzibati və məhkəmə qaydasında (CPM-nin 449-cu maddəsi) mübahisələndirmək imkanı yaradılmalıdır. Belə mexanizm cinayət təqibini daha balanslı, ədalətli edə, təqsirləndirilən şəxsin müdafiə hüquqlarının daha dolğun və səmərəli təmin edilməsinə şərait yarada bilər. Bu, qeyd edilən qərarların həm də formal məntiqin "kafi əsas" qanununa hörmət ruhunda hazırlanmasına imkan verərdi.

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

[5] *Bax:* Стойко Н. Г., Семухина О. Б. Уголовный процесс в США //Красноярск: КГУ. – 2000.
[6] *Bax:* Məhsimov (Maksimov) Azərbaycan qarşı məhkəmə işi (Ərizə № 38228/05) üzrə 8.10.2009-cu il tarixli qərar, p.38.
[7] *Bax:* Meqi (MAGEE) Birləşmiş Krallığa qarşı məhkəmə işi (Ərizə № 28135/95) üzrə 6.06.2000-ci il tarixli qərar, p.41.
[8] *Bax:* Ekle Almaniyaya qarşı məhkəmə işi [Eckle v. Germany] üzrə 15.07.1982-ci il tarixli qərar, p.73.
[9] *Bax:* Brandştetter Avstriyaya qarşı məhkəmə işi (Brandstetter v. Austria) üzrə 28.08.1991-ci il tarixli qərar, p.68.

# Ukrayna qanunvericiliyinə görə məhkəmə qərarı ibtidai istintaqda verilmiş ifadələrlə əsaslandırıla bilməz

Ukrayna 13.04.2012-ci il tarixdə yeni Cinayət-Prosessual Məcəlləsi qəbul etmişdir (http://kodeksy.com.ua/ka/upku-2012.htm). Bu Məcəlləyə sonradan xeyli əhəmiyyətli dəyişikliklər edilmiş, bir çox yeni prosessual institutlar əlavə olunmuş, ilk dəfə olaraq bəzi həlli çətin görünən situasiyalardan ədalətli çıxış yolları tapılmasının rasional üsulları daxil edilmişdir. Oxucular üçün maraq kəsb edə biləcəyini nəzərə alaraq jurnalın bu nömrəsində bu Məcəllənin məhkəmə qərarının ifadələrlə əsaslandırılması qaydalarına həsr edilmiş 95-ci maddəsinin 4-cü hissəsinin məzmunu ilə tanış etmək qərarına gəldik. Fikrimizcə, bu məlumat oxucularda cinayət prosesinin inkişaf meylləri barədə düzgün təsəvvür formalaşmasına kömək edə bilər.

---

[1] 4. Суд может обосновывать свои выводы лишь на показаниях, которые он непосредственно воспринимал во время судебного заседания или полученных в порядке, предусмотренном статьями 225 настоящего Кодекса. Суд не вправе обосновывать судебные решения показаниями, предоставленными следователю, прокурору, или ссылаться на них.

[2] Статья 225. Допрос свидетеля, пострадавшего во время досудебного расследования в судебном заседании

1. В исключительных случаях, связанных с необходимостью получения показаний свидетеля или потерпевшего во время досудебного расследования, если из-за существования опасности для жизни и здоровья свидетеля или потерпевшего, их тяжелой болезни, наличии других обстоятельств, которые могут сделать невозможным их допрос в суде или повлиять на полноту и достоверность показаний, сторона уголовного производства вправе обратиться к следственному судье с ходатайством провести допрос такого свидетеля или потерпевшего в судебном заседании, в том числе одновременный допрос двух или более уже допрошенных лиц. В этом случае допрос свидетеля или потерпевшего осуществляется в судебном заседании в месте расположения суда или пребывания больного свидетеля, потерпевшего в присутствии сторон уголовного производства с соблюдением правил проведения допроса во время судебного разбирательства.

Неприбытие стороны, которая была должным образом уведомлена о месте и времени проведения судебного заседания для участия в допросе лица по ходатайству противоположной стороны не препятствует проведению такого допроса в судебном заседании.

Допрос лица согласно настоящей статье может быть также проведен при отсутствии стороны защиты, если на момент его проведения какой-либо личности не сообщается о подозрении в этом криминальном производстве.

2. Для допроса тяжелобольного свидетеля, пострадавшего во время досудебного расследования может быть проведено выездное судебное заседание.

3. При принятии судебного решения по результатам судебного разбирательства уголовного производства суд может не учесть доказательства, полученные в порядке, предусмотренном настоящей статьей, только приведя мотивы такого решения.

4. Суд во время судебного разбирательства вправе допросить свидетеля, потерпевшего, спросил соответствии с правилами настоящей статьи, в частности в случаях, если такой допрос проведен при отсутствии стороны защиты или если есть необходимость уточнения показаний или получения показаний относительно обстоятельств, которые не были выяснены в ходе допроса в ходе досудебного расследования.

5. С целью проверки правдивости показаний свидетеля, потерпевшего и выяснения разногласий с показаниями, предоставленными в порядке, предусмотренном настоящей статьей, они могут быть объявлены при его допросе в ходе судебного разбирательства.

Maddənin məzmunu yuxarıda qeyd edilən rusdilli internet resursundan götürülmüş, tərcümə olunmuşdur.

Ukrayna CPM-nin 95-ci maddəsi "İfadələr" adlanır (Статья 95. Показания). Maddənin 4-cü hissəsinin məzmunu belədir[1]: "Məhkəmə gəldiyi nəticələri yalnız bilavasitə məhkəmə zalında dinlədiyi və ya bu Məcəllənin 225-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada alınmış ifadələrlə əsaslandıra bilər. Məhkəmə öz qərarını müstəntiqə, prokurora verilmiş ifadələrlə əsaslandıra, onlara istinad edə bilməz".

Ukrayna CPM-nin 225-ci maddəsinin məzmunu təxminən belədir[2]: "Maddə 225. Şahidin, zərər çəkmiş şəxsin məhkəməyədək araşdırma zamanı məhkəmə iclasında dindirilməsi.

1. Məhkəməyədək araşdırma zamanı şahidin və ya zərər çəkmiş şəxsin ifadəsinin alınması zərurəti ilə bağlı müstəsna hallarda, əgər şahidin və ya zərər çəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükə, ağır xəstəlik, eləcə də onların məhkəmədə dindirilmələrinə imkan verməyən və ya ifadələrin tamlığına və həqiqiliyinə təsir edən digər hallar olduqda, cinayət prosesinin tərəfi belə şahidin və ya zərər çəkmiş şəxsin, həmçinin əvvəllər dindirilmiş iki və daha çox şəxsin eyni zamanda məhkəmə iclasında dindirilməsinin keçirilməsi barədə istintaq hakiminə vəsatətlə müraciət edə bilər. Bu halda şahidin və ya zərər çəkmiş şəxsin məhkəmə iclasında dindirilməsi məhkəmənin yerləşdiyi və ya xəstə şahidin, zərər çəkmiş şəxsin olduğu yerdə cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmə baxışında dindirmə aparılması qaydalarına əməl etməklə həyata keçirilir.

Əks tərəfin vəsatəti üzrə şəxsin dindirilməsində iştirak etmək üçün dəvət edilmiş, məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada məlumatlandırılmış tərəfin gəlməməyi belə dindirmənin məhkəmə baxışı zamanı keçirilməsinə mane olmur.

Cinayət işi ilə əlaqədar hər hansı bir şəxsə qarşı şübhə elan edilməmişdirsə, şəxsin bu maddəyə uyğun olaraq dindirilməsi müdafiə tərəfinin iştirakı olmadan da aparıla bilər.

2. Ağır xəstə olan şahidin, zərər çəkmiş şəxsin məhkəməyədək araşdırma zamanı dindirilməsi üçün səyyar məhkəmə iclası keçirilə bilər.

3. Cinayət işi üzrə icraat zamanı məhkəmə araşdırmalarının yekunu üzrə məhkəmə qərarı qəbul edilərkən məhkəmə bu maddə ilə nəzərdə tutulmuş qaydada əldə edilmiş sübutları yalnız qərarının əsaslarını göstərmək şərti ilə nəzərə almaya bilər.

4. Məhkəmə, məhkəmə baxışı zamanı bu maddənin qaydalarına əsasən dindirilmiş şahidi, zərər çəkmiş şəxsi dindirməyə, o cümlədən belə dindirmə müdafiə tərəfinin iştirakı ilə aparılmadıqda və ya məhkəməyədək mərhələdə dindirilərkən bu şəxslərin verdikləri ifadələrin dəqiqləşdirilməsinə və ya dindirmə zamanı aydınlaşdırılmamış hallara dair ifadələrinin alınmasına zərurət olduqda haqlıdır.

5. Şahidin, zərər çəkmiş şəxsin ifadələrinin həqiqiliyini və bu maddə ilə nəzərdə tutulmuş qaydalara uyğun verilmiş ifadələrlə onların arasında olan ziddiyyətləri yoxlamaq üçün həmin ifadələr məhkəmə baxışında dindirmə zamanı elan edilə bilər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilərin andiçmə mərasimi keçirilmişdir



“Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə”yə və “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları”na əsasən, prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan edilmiş müsabiqəyə yekun vurulmuş, 117 gənc hüquqşünasın prokurorluq orqanlarında müvafiq vakant ştat vahidlərinə stajor təyin olunmuşlar. Bununla bağlı sentyabrın 30-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda gənc işçilərin andiçmə mərasimi keçirilmişdir.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc işçilər ilk növbədə Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, “Əbədi məşəl” kompleksinin önünə əklil qoymuşlar.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, prokurorluğun kadr tərkibinin formalaşdırılmasının yeganə düzgün yolu kimi beynəlxalq standartlara uyğun şəffaf prosedur



qaydalar əsasında gənc mütəxəssislərin işə qəbulu memarı xalqımızın ümummilli lideri Heydər Əliyev olan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilən hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq, tam aşkarlıq şəraitində, şəffaf prosedurlarla, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin müşahidəsi ilə keçirilən müsabiqədə seçilən ən layiqli namizədlər müxtəlif vəzifələrə təyinatlar almışlar.

Qeyd edilmişdir ki, prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq üçün Baş Prokurorluğun Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə keçirdiyi qəbul prosesində iştirak etmiş gənc hüquqşünasların içərisindən ən layiqli 117 namizədin andiçmə mərasimi Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 25-ci ildönümünə təsadüf edir. Bu gün yüksək templərlə inkişaf edən Azərbaycan Respublikasında dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında böyük quruculuq işləri həyata keçirilməklə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, regionun aparıcı dövlətinə çevrilən ölkəmizin iqtisadi qüdrətinin möhkəmləndirilməsi, demokratik dəyərlərə əsaslanan dünyəvi və hüquqi dövlət quruculuğunun tam yeni məzmunlu bir mərhələyə qaldırılması istiqamətində möhtəşəm işlər görülür.

Xüsusi vurğulanmışdır ki, gənclərə hərtərəfli qayğı və diqqət göstərilməsi, onların problemlərinin həlli istiqamətində bütün dövlət təsisatları tərəfindən zəruri tədbirlərin görülməsi, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda aparılan dövlətçilik siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi bu məsələlərə çox böyük önəm verildiyinin bariz nümunəsi kimi dəyərləndirilməlidir.

Diqqətə çatdırılmışdır ki, 2000-ci il aprelin 26-da ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulmaqla, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm istiqamətlərindən biri kimi




müsabiqə yolu ilə qulluğa qəbulun alternativi olmamaqla, bu yol prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən demokratik və mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq keçirilən 17 müsabiqə nəticəsində işə qəbul edilmiş 780 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 63 faizini təşkil edir. Müsbət hal kimi qeyd edilmişdir ki, müsabiqə yolu ilə ilkin qəbulların nəticələrinə görə prokurorluqda qulluğa qəbul olunmaqla fəaliyyətləri dövründə xidməti vəzifələrinə vicdanlı münasibətləri və peşə hazırlığı səviyyəsinə görə seçilən bir çox gənc mütəxəssislər vəzifədə irəli çəkilmiş, o cümlədən Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi, müstəqil rayon prokuroru və digər mühüm qurumlara təyinatlar almışlar.

Azərbaycan Respublikası Baş prokurorunun müavini, Müsabiqə komissiyasının sədri Namiq Əsgərov qulluğa qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat vermişdir.

Daha sonra, prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilmiş, işə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içmişlər.

Mərasimdə çıxış edən gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmiş və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Baş prokuror Zakir Qaralov mərasimə yekun vuraraq prokurorluğa qulluğa qəbul olunan gəncləri təbrik etmiş, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirmişdir.

Mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2016-cı ilin I yarımili ərzində görülmüş işlərə dair hesabat vermişdir

**Azərbaycanda korrupsiyaya qarşı mübarizə bundan sonra da uğurla davam etdiriləcək**

İyulun 15-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2016-cı ilin I yarımili ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev xüsusi vurğulamışdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi strateji kursun mükəmməl konseptual əsaslarla davam etdirilməsi nəticəsində ötən dövrlərdə olduğu kimi 2016-ci ilin birinci yarımili ərzində də bütün sahələrdə mühüm nailiyyətlər qazanılmaqla irimiqyaslı uğurlara imza atılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük siyasi iradə, əzm və qətiyyəti hesabına davamlı iqtisadi tərəqqi, xalqın rifahının yüksəldilməsi, müasir dünyada mövcud olan siyasi-iqtisadi vəziyyət, qlobal maraqlar sistemi nəzərə alınmaqla ölkəmizin davamlı inkişafı, korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə tədbirləri inamla həyata keçirilməkdədir. Dövlət başçısının təşəbbüsü ilə ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, şəffaflığın və azad rəqabətin təmin olunması, bürokratik əngəllərin, monopoliyanın aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi, əsassız yoxlamaların aradan qaldırılması, daha çevik və keyfiyyətli idarəetmənin təmin edilməsi məqsədilə ardıcıl hüquqi və institusional islahatlar hesabat dövründə də uğurla davam etdirmişdir.

Bildirilmişdir ki, hesabat dövründə korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş ən mühüm sənədlərdən biri Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"dır və Fəaliyyət Planının icrası ilə əlaqədar Baş Prokurorluğun Tədbirlər Planı Baş prokuror tərəfindən 19 may 2016-cı il tarixdə təsdiq edilmişdir.

Qeyd edilmişdir ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi fəaliyyətini cari ilin I yarımili ərzində də eyni intensivliklə həyata keçirilmişdir.

Hesabat dövründə Baş İdarə tərəfindən vətəndaşların 5327 müraciətinə baxılmış, həmçinin 146 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 97-i (66%) üzrə cinayət işi başlanmış, 49 (34%) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 60 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

Cari ilin birinci yarımilində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 3254 müraciət daxil olmuş, həmin müraciətlərin 14-ü üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmışdır. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə aidiyyəti təşkilatlara təqdimatlar göndərilmişdir.

Həmin dövrdə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 6, habelə əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 15 olmaqla cəmi 21 cinayət işi başlanmışdır.

2016-cı ilin I yarımili ərzində Baş İdarədə dövlət və özəl sektorda çalışan 143 vəzifəli şəxs barəsində

100 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 48 şəxs barəsində 25 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 30 şəxs barəsində 27 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dələduzluq, 25 şəxs barəsində 17 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və aşma, 7 şəxs barəsində 7 iş rüşvət alma, 7 şəxs barəsində 4 iş rüşvət vermə, 3 şəxs barəsində 2 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 2 şəxs barəsində 1 iş vəzifə saxtakarlığı, 21 şəxs barəsində 17 iş isə digər faktlarla əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 9 milyon 785 min manat ziyandan istintaq müddətində 3 milyon 151 min manat və ya 32,2 % ödənilmiş, qalan ziyanın ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Hesabat dövründə Baş İdarədə 1264 vətəndaş qəbul edilmişdir. Onlardan 39-u bilavasitə Baş İdarə rəisi, 91-i idarə və şöbə rəisləri, 1134-ü isə Baş İdarənin prokurorları tərəfindən qəbul edilmişlər.

Həmin dövrdə korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmiş, "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunun tələblərinin pozularaq cinayət xarakteri daşımayan pozuntulara yol verildiyi müəyyənləşdirildiyindən həmin şəxslər barəsində "Prokurorluq haqqında" qanuna müvafiq olaraq aidiyyəti üzrə təqdimatlar verilmiş, 3 şəxs barəsində inzibati iş üzrə icraat açılmış, 3 vəzifəli şəxsə qanun pozuntusunun aradan qaldırılması barədə xəbərdarlıq edilmişdir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Vüsal Hüseynov korrupsiyaya qarşı mübarizə sahəsində parlamentin rolu, səmərəli antikorrupsiya qanunvericiliyinin formalaşdırılması üçün həyata keçirilən tədbirlər, bu məqsədlə müzakirə edilən qanun layihələri, habelə İdarə Heyətinin üzvü olduğu Beynəlxalq Antikorrupsiya Akademiyasının fəaliyyəti və həmin qurumun ölkəmizlə ikitərəfli əlaqələri barədə ətraflı məlumat vermişdir.

Bundan başqa, tədbirdə iştirak edən Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın katibi vəzifəsini icra edən Kamal Cəfərov bildirmişdir ki, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradənin göstəricisi olaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi, əlaqəli dövlər orqanları ilə birlikdə daha böyük korrupsiya şəbəkələrinin aşkar edilməsi istiqamətində dövlət orqanları, o cümlədən prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur.

Kamal Cəfərov həmçinin, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində "ASAN" xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulamışdır.

Bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Belə ki, cari il aprelin 21-22-də Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) Rəhbər Qrupunun 20-ci görüşündə qabaqcıl ölkələr kimi Azərbaycan və Gürcüstan IV Monitorinq Raunda daxil olmuşdur. Monitorinq Raundu çərçivəsində 20-24 iyun 2016-cı il tarixlərdə qurumun 10 nəfərdən ibarət ekspertlər qrupu ölkəmizə səfər etmiş və Azərbaycan Respublikası üzrə müvafiq hesabatın hazırlanması ilə əlaqədar bir sıra dövlət orqanlarının nümayəndələri ilə anti-korrupsiya siyasəti, biznesdə dürüstlük, korrupsiyaya qarşı mübarizəyə dair cinayət qanunvericiliyi və onun praktikada tətbiqi, dövlət qulluğunda dürüstlük, korrupsiya cinayətlərinin ibtidai istintaqı, dövlət ittihamının müdafiəsi və digər mövzularda müzakirələr keçirilmişdir. Azərbaycan üzrə müvafiq monitorinq hesabatın Şəbəkənin 2016-cı ilin 14-16 sentyabr tarixlərində Parisdə keçiriləcək növbəti iclasında qəbul edilməsi nəzərdə tutulmuşdur.

Həmçinin, cari il fevralın 4-də Malayziya Antikorrupsiya Komissiyasının Putracaya şəhərində yerləşən baş qərargahında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Malayziyanın Antikorrupsiya Komissiyası arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Bundan başqa, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan dövlətlər qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (İAP), Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyasının (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyasi (İACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmış, Misir Ərəb Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış İnzibati Nəzarət Qurumunun, Türkiyə Ali Məhkəməsinin, Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin məsul əməkdaşlarının daxil olduğu nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya

qarşı Mübarizə Baş İdarəsində olmaqla qurumun fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə münasibətlərin sıx qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlərlə əlaqədar kütləvi informasiya vasitələrində informasiyalar dərc edilmişdir.

Cari il iyulun 10-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə verdiyi göstərişlərə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməklə bu kateqoriyadan olan cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdiriləcəyi xüsusi vurğulanmışdır.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən cari ilin I yarımili ərzində görülən işləri müsbət qiymətləndirmişlər.

QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

***

# Yuvenal ədliyyə sistemi barədə seminar keçirilmişdir

Sentyabrın 20-si Xızı rayon prokurorluğunda, 22-si Hacıqabul rayon prokurorluğunda «Yetkinlik yaşına çatmayanların hüquq və vəzifələrinin qorunmasında milli və beynəlxalq qanunvericiliyin rolu, Yuvenal Ədliyyəyə çıxışın perspektivləri» mövzusunda seminar keçirilmişdir.

Tədbirdə Sumqayıt və Şirvan şəhər, Xızı, Abşeron, Qubadlı, Quba, Qusar, Şabran, Siyəzən, Xaçmaz, Hacıqabul, Sabirabad, Kürdəmir, Ucar, Salyan, Ağsu, Biləsuvar və Neftçala rayon və Sumqayıt hərbi prokurorluqlarının işçiləri iştirak etmişlər.

Seminarda çıxış edən Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru Rəşad Qasımov və idarənin Mətbuat xidmətinin prokuroru Çingiz Əli-zadə yuvenal ədliyyə sistemi, uşaq hüquqlarının müdafiəsi üzrə milli və beynəlxalq qanunvericiliyin rolu və bu sahədə digər bilgilər barədə məlumat vermişlər.

Mövzu ilə bağlı müzakirələr aparılmış, seminar iştirakçılarının mülahizələri dinlənilmiş və suallarına cavab verilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

# "Vətəndaşların qəbulu işinin təşkili" mövzusunda seminar keçirilmişdir

Sentyabrın 19-da Mingəçevir şəhər prokurorluğunda Müraciətlərə baxılması idarəsinin prokuroru Yaqut Əliyeva bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə "Vətəndaşların qəbulu işinin təşkili" mövzusunda ənənəvi seminar keçirmişdir.

Tədbirdə Mingəçevir şəhər, Qəbələ, Ağdaş, Yevlax, Oğuz, Zaqatala, Şəki və Balakən rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər. Seminarda prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər sadalanmış, 14.11.2015-ci il tarixdə qüvvəyə minmiş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun prokurorluq orqanlarında tətbiqinə həsr edilmiş Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müddəaları şərh olunmuş, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsi təcrübəsi təhlil edilmiş, müsbət nəticələr göstərilməklə yanaşı nöqsan və pozuntuların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

Geniş fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# "Məxfi kargüzarlıq işinin təşkili" mövzusunda seminar keçirilmişdir

Sentyabrın 23-də Zaqatala rayon prokurorluğunda Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) Seyfulla Aslanovun iştirakı ilə «Məxfi kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilmişdir.

Tədbirdə Zaqatala, Qəbələ, Şəki, Oğuz, Balakən və Qax rayon prokurorluqlarının məsul əməkdaşları və dəftərxana müdirləri iştirak etmişlər. Seminarda prokurorluq orqanlarında məxfiçilik və məxfilik rejiminin təmin olunması, bu sahədə icraya nəzarət və məxfi kargüzarlıq işinin təşkili sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verilərək Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələbləri şərh edilmiş, dövlət sirrinin qorunması və məxfiçilik rejiminə əməl olunmasının vacibliyi vurğulanmışdır.

Daha sonra bu sahədə işin düzgün təşkilinin prokurorluq orqanlarının səmərəli fəaliyyətini şərtləndirən əsas amillərdən olmaqla fəaliyyət istiqamətlərinə uyğun olaraq qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində, dövlət və cəmiyyətin ali maraqlarının qorunmasında müstəsna əhəmiyyəti qeyd edilmişdir. Seminarda, həmçinin dövlət sirrinin qorunması sahəsində mövcud olan normativ hüquqi aktların mükəmməl öyrənilməsi, icraatda olan məxfi sənədlərin nəzarətdən çıxma imkanının qarşısının alınması və onların etibarlı mühafizəsinin təmin edilməsi, məxfi sənədlərin göndərilməsi haqqında məktubların, müvafiq təqdimat və ya başqa sənədlərin hazırlanması zamanı qanunvericiliklə müəyyən edilmiş zəruri rekvizitlərin əlavə edilməsi, məxfi kargüzarlığın digər prosedur və qaydalarına ciddi əməl olunmasının zəruriliyi vurğulanmışdır.

Geniş fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun**
**Müraciətlərə baxılması idarəsi**

# Naxçıvan şəhər prokurorluğunda "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilmişdir

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə Naxçıvan şəhər prokurorluğunda Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilmişdir.

Tədbirdə qeyd edilmişdir ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. Bu ilin mart ayının 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsi prokuror nəzarətinin daha səmərəli təşkili üçün zəruri hüquqi vasitələr təsbit etmişdir. Bir sıra inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarın yalnız prokuror tərəfindən qəbul edilməsi müəyyənləşdirilmişdir. Müvafiq əsaslar yarandıqda prokuror digər inzibati xətalar haqqında işlər üzrə də icraatın başlanması haqqında qərar qəbul edir.

Qeyd olunmuşdur ki, prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir. Yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Seminar iştirakçılarının nəzərinə çatdırılmışdır ki, inzibati xətalara dair icraatda prokuror nəzarəti qarşısında qoyulmuş vəzifələrin səmərəli icrası məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 3 mart 2016-cı ildə müvafiq əmr imzalanmış və bu sahədə prokurorluğun üzərinə düşən vəzifələr əmrdə konkret göstərilmişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Minskdə keçirilən MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak etmişdir



Sentyabrın 7-də Minsk şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 26-cı iclası keçirilmişdir.

MDB prokurorluq orqanlarının əməkdaşlarının iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İclasda çıxış edən Kamran Əliyev ölkəmizin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə sahəsində qəbul edilən bütün beynəlxalq və regional konvensiyalara qoşulduğunu bildirmişdir. Fəaliyyət strategiyasının banisinin xalqımızın ümummilli lideri Heydər Əliyev olduğunu vurğulayan natiq, prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının beynəlxalq antiterror koalisiyasının, o cümlədən enerji təhlükəsizliyi və sülhməramlı əməliyyatların həyata keçirilməsində fəal iştirakçılardan birinə çevrildiyini xüsusi qeyd etmişdir.

Bildirilmişdir ki, ölkəmiz ötən əsrin sonlarında terrora məruz qalaraq 20% ərazisi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş və nəzarətdən çıxan həmin ərazilər terrorçular üçün düşərgələrin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, təlimlərin keçirilməsi, terror aktlarının planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaradır.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Kamran Əliyev terrorçuluğa qarşı mübarizədə prokurorluğun rolu, ölkəmizdə bu sahədə qəbul edilmiş normativ hüquqi aktlar, milli konsepsiya və praktiki mexanizmlər barədə ətraflı məlumat vermişdir.

İclasda həmçinin iqtisadi cinayətkarlığa qarşı mübarizə (Belarus), cəzaçəkmə müəssisələrində əhalinin sayının azaldılması (Qazaxıstan), seçkilərin keçirilməsi zamanı qanunçuluğun təmin olunması (Qırğızıstan), məhkəməyədək cinayət icraatında azyaşlıların hüquqlarının qorunması və bu sahədə prokuror nəzarəti (Rusiya), beynəlxalq təhlükəsizliyə təhdid edən cinayətkar qruplaşmalar və ekstremist təşkilatlara qarşı mübarizədə prokurorluq orqanlarının rolu (Tacikistan) mövzularında çıxışlar dinlənilmiş, fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çayka Şuranın növbəti il üçün sədri seçilmiş və növbəti iclasın 2017-cı ildə Rusiyada keçirilməsi qərara alınmışdır.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Rusiya, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan və Tacikistan nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir




Sentyabrın 11-dən 15-dək İrlandiya Respublikasının paytaxtı Dublin şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 21-ci İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir. Tədbirdə ölkəmizi Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Assosiasiyanın Antikorrupsiya Şəbəkəsinin iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri "Korrupsiyaya qarşı mübarizə və beynəlxalq əməkdaşlıq" mövzusunda təqdimatla çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasəti nəticəsində ölkə həyatının bütün sahələrində möhtəşəm uğurlar qazanılmaqla irimiqyaslı nailiyyətlərə imza atıldığını xüsusi vurğulamışdır.

Dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha intensiv xarakter almaqla mütərəqqi təşkilati və institusional tədbirlərin həyata keçirilməsi barədə ətraflı məlumat verən natiq, korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında region ölkələrinin hüquq sistemində və qanunvericiliyində bu sahədə mövcud olan problemlər, onların həlli yolları və inkişaf perspektivlərinə toxunmuşdur. İclasın sonunda Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar, bukletlər və statistik məlumatlar tədbir iştirakçılarına təqdim edilmişdir.

İcraiyyə Komitəsinin iclasında nümayəndə heyətinin rəhbəri çıxış edərək Azərbaycanın BPA-nın fəaliyyətinə verdiyi önəmi xüsusi vurğulayaraq ötən il ərzində Assosiasiya ilə səmərəli əməkdaşlığın inkişafı istiqamətində görülmüş işlərlə bağlı ətraflı məlumat vermişdir. İclasda həmçinin gündəlikdə duran təşkilati məsələlərlə əlaqədar fikir mübadiləsi aparılmış, müvafiq qərarlar qəbul edilmişdir. Assosiasiyanın Antikorrupsiya Şəbəkəsinin növbədənkənar iclasında Qətərin Baş prokuroru Bin Fetais Al Marri, İsveçrənin Baş prokuroru Mixael Lauber, Perunun Baş prokuroru Pablo Velarde və digərləri tərəfindən

korrupsiyaya qarşı mübarizə sahəsində təmsil etdikləri ölkələr arasında əməkdaşlığı daha da gücləndirmək məqsədi ilə yeni əlaqələndirici bazanın yaradılması qərara alınmışdır.

Sentyabrın 12-də Assosiasiyanın 21-ci İllik Konfransı və Ümumi Yığıncağının təntənəli açılış mərasimində İrlandiya Respublikasının Baş prokuroru Kler Loftus və BPA-nın prezidenti Gerhard Yaroş çıxış edərək korrupsiya ilə mübarizədə prokurorların rolunu qeyd etmiş, Assosiasiyanın ötən dövrlərdəki fəaliyyətinə nəzər salmışlar.

"Prokuror və müstəntiqlərin cinayət təqibində rolu" mövzusunda keçirilmiş İllik Konfransda dünyanın 92 ölkəsindən 550 nəfər, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

Tədbirin sonuncu günü Assosiasiyanın Ümumi Yığıncağında qurumun ali orqanı olan İcraiyyə Komitəsinə keçirilmiş seçkilər zamanı ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə verdiyi töfhələr və yüksək səviyyəli işgüzar əlaqələr nəzərə alınmaqla Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri növbəti 3 il müddətinə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Görüşlər çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvləri Assosiasiyanın prezidenti, İrlandiya, Türkiyə və Qətərin Baş prokurorları, eləcə də Böyük Britaniya, Çin, Rusiya, Qazaxıstan, Ukrayna, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparmışlar.

Tədbir çərçivəsində BPA-nın növbəti İllik Konfransının 2017-ci ilin sentyabr ayında Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilməsi qərara alınmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Azərbaycan Respublikasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir

Sentyabrın 14-16-da Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 17-ci monitorinq görüşü, eləcə də Şəbəkənin Rəhbər Qrupunun 21-ci görüşü keçirilmişdir.

Görüşlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru - Azərbaycan Respublikasının Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Baş İdarənin məsul əməkdaşları, həmçinin qeyri-hökumət təşkilatının nümayəndələri iştirak etmişlər.

Müzakirələr zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının III Monitorinq Raundu çərçivəsində ölkəmizdə həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr müzakirə edilmiş, bu mərhələdə Azərbaycan Respublikasının ölkə Prezidentinin siyasi iradəsinə uyğun olaraq mühüm addımlar ataraq uğurlar əldə etməsi, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstanbul Fəaliyyət Planının icrası istiqamətində görülmüş tədbirlərdə aktiv iştirakı, həmçinin korrupsiyaya qarşı




mübarizədə "ASAN" xidmət mərkəzlərinin mühüm rol oynaması xüsusi vurğulanmış, ölkəmizin əldə etdiyi müsbət təcrübə önə çəkilmiş, nəticədə Azərbaycan Respublikası Gürcüstanla yanaşı ilk olaraq III Monitorinq Raundunu uğurla tamamlayaraq IV qiymətləndirmə mərhələsinə keçən ölkə olmuşdur. Qeyd edilmişdir ki, İstanbul Fəaliyyət Planı çərçivəsində ölkəmizdə verilmiş tövsiyələrin böyük əksəriyyətinin uğurla icra edilməsi Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli fəaliyyətinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin növbəti bariz nümunəsidir.

Tədbir çərçivəsində Azərbaycan və Gürcüstanın öncəki mərhələni uğurla tamamlayaraq IV Monitorinq Raunduna daxil olmasının qəbul edilməsi ilə yanaşı, Ukrayna, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Şəbəkəyə daxil olan digər ölkələrin III Monitorinq Raundu üzrə verilmiş tövsiyələrin icra vəziyyəti ilə bağlı aralıq hesabatları da müzakirə edilərək qəbul edilmişdir.

Sentyabrın 16-da keçirilmiş Anti-Korrupsiya Şəbəkəsinin Rəhbər Qrupunun 21-ci görüşü zamanı isə Şəbəkənin müvafiq dövrü əhatə edən "2013-2015-ci illərdə Şərqi Avropa və Mərkəzi Asiyada Anti-Korrupsiya İslahatları, Nailiyyətlər və Çətinliklər" adlanan yekun hesabatı təqdim edilmiş, Şəbəkənin 2016-2019-cu illər üzrə İşçi Proqramının icrası istiqamətində ortaya çıxan məsələlər ilə bağlı fikir mübadiləsi aparılmış, Şəbəkəyə daxil olan ölkələrdə həyata keçirilən sahəvi anti-korrupsiya islahatları ilə bağlı dəyirmi masa keçirilmiş, həmçinin IV Monitorinq Raundunun, həmçinin Şəbəkənin fəaliyyətinin təşkili ilə əlaqədar bir sıra digər məsələlər işçi qaydada müzakirə edilmişdir.

Bununla yanaşı, görüşlər çərçivəsində tədbirdə təmsil olunan ölkələrin hüquq-mühafizə orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə ikitərəfli görüşlər keçirilərək səmərəli fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarına Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən materiallar paylanmışdır.

IV Monitorinq Raundu çərçivəsində Azərbaycan Respublikası üzrə qəbul edilmiş və özündə yeni tövsiyələr nəzərdə tutan müvafiq hesabatın prosedur qaydalarına uyğun olaraq yaxın zamanda təşkilatın rəsmilərinin Bakı şəhərinə səfəri zamanı aidiyyəti dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə ictimaiyyətə açıqlanması nəzərdə tutulmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndəsi Minskdə keçirilən «İnternet şəbəkəsində narkocinayətkarlığa qarşı mübarizə: istintaq və cinayət təqibi» adlı seminarda iştirak etmişdir

Sentyabrın 15-16-da Belarus Respublikasının paytaxtı Minsk şəhərində Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı (TAİEX) və Belarus Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunmuş «İnternet şəbəkəsində narkocinayətkarlığa qarşı mübarizə: istintaq və cinayət təqibi» adlı seminar keçirilmişdir.

Seminarın benefisiarları Azərbaycan, Belarus, Gürcüstan, Moldova. Ukrayna və Ermənistan olmaqla tədbirdə həmin ölkələrin nümayəndə heyətləri iştirak etmişlər. Azərbaycan Respublikasını seminarda Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və Protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov və Daxili İşlər Nazirliyinin əməkdaşları təmsil etmişlər.

Tədbirin əsas məqsədi Avropa İttifaqı (Al) Şərq Qonşuluğu ölkələrinin prokuror və polis əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinin yeni texnologiyaları barədə məlumatlılığını artırmaqdan və bununla da onların internetdə narkocinayətkarlığın istintaq və cinayət təqibi sahəsində potensiallarının gücləndirilməsindən ibarət idi.

Aİ-nin narkotiklərlə bağlı Fəaliyyət planının əsas hədəfi yeni informasiya-kommunikasiya texnologiyalarının narkotiklərin qanunsuz dövriyyəsində rolu barədə strateji suala cavabın müəyyən edilməsidir. İsveç, Finlandiya, Polşa, İrlandiya, Litva və Niderland Krallığının altı eksperti seminar çərçivəsində dinləyicilərlə öz təcrübələri və qabaqcıl praktika ilə bölüşmüşlər.

Seminarın birinci sessiyası çərçivəsində internetdə narkocinayətkarlıqla mübarizə vəziyyəti barədə məlumatlar dinlənilərək müzakirələr aparılmışdır. Azərbaycan Respublikası tərəfindən təqdimatla Xidmət rəhbəri İsmayıl Qayıbov çıxış etmiş, verilən sualları cavablandırmışdır.

O, həmçinin nümayəndə heyətləri və ekspertlərlə görüşlər keçirmiş, Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə həmin ölkələrin baş prokurorları arasında əməkdaşlığın perspektivləri və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

İyulun 1-dən 8-dək Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasında (IACA) 6-cı Yay Akademiyası (IACSA) keçirilmişdir.

Dünyanın 50-dən artıq dövlətin nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycan Prokurorluğunu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru Vüqar Əhmədli təmsil etmişdir.

"Təcrübə elmlə qovuşur" mövzusunda keçirilən tədbirdə bir sıra mötəbər elm və araşdırma mərkəzlərinin professorları, habelə beynəlxalq təşkilatların və şirkətlərin rəhbər şəxsləri, ekspertləri transmilli cinayətkarlığın ən təhlükəli növü hesab edilən korrupsiyanın yaranma səbəbləri, onun qarşısının alınmasında innovativ mübarizə üsulları, qabaqlayıcı tədbirlər, bu sahədə qarşılıqlı beynəlxalq əməkdaşlığın rolu və digər mövzularda məruzələr söyləmişlər.

Əvvəlki illərdə olduğu kimi kurslarda tədbir iştirakçıları işçi qruplarına bölünməklə praktiki tapşırıqların həll olunmasında aktiv iştirak etmiş, hər qrup tərəfindən mövzu üzrə təqdimatlar keçirilmiş, habelə interaktiv şəkildə keçirilən təlim zamanı tədbir iştirakçılarını maraqlandıran suallar ekspertlər tərəfindən cavablandırılmışdır.

Azərbaycan təmsilçisi müvafiq tapşırıqların həllində xüsusi fəallıq göstərdiyinə görə Akademiyanın mükafatı ilə təltif olunmuşdur.

Tədbirin sonunda iştirakçılara IACSA-nı müvəffəqiyyətlə bitirmələrinə dair sertifikatlar təqdim olunmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/07**

Bakı şəhəri 4 fevral 2016-cı il

## Baş Prokurorluq üzrə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş məsələlərin icrası və beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə» 14 fevral 2007-ci il tarixli, 10/13 nömrəli əmrə dəyişikliklər edilməsi barədə

«Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli, 1395-IVQD nömrəli Qanunu ilə Cinayət-Prosessual Məcəlləsinə bir sıra dəyişikliklər edilmişdir.

Qeyd olunan dəyişikliklərə əsasən Baş Prokurorluq üzrə 14 fevral 2007-ci il tarixli, 10/13 nömrəli əmrə müvafiq dəyişikliklərin edilməsi zərurətinin yaranması və prokurorluğun beynəlxalq əməkdaşlıq sahəsində işinin səmərəliliyinin artırılmasının təmin olunması məqsədi ilə «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 6 və 10-cu maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Əmrin 12-ci bəndinin birinci abzasında «tələblərinə əsasən müvafiq» sözləri «495-ci maddəsində nəzərdə tutulmuş» sözləri ilə əvəz edilsin.

**1.1.** Əmrin 12-ci bəndinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

«Şəxsin gələcəkdə cinayət mühakimə icraatında iştirakının və ya barəsində olan hökmün icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası CPM-nin tələblərinə müvafiq tədbirlərin görülməsi təmin edilsin.»

**2.** Əmrin 14-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«Şikayətlərə məhkəmələrdə baxılarkən proseslərdə İdarə prokurorlarının iştirakı təmin edilsin.»

**3.** Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/19**

Bakı şəhəri 14 aprel 2016-cı il

## "Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar işin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Baş prokurorunun 28.12.2001-ci il tarixli, 08/174 nömrəli əmrinə dəyişikliklər edilməsi barədə

Prokurorluqda ixtisasartırma və işçilərin attestasiya işinin daha da səmərəli təşkil olunması məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar işin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Baş prokurorunun 28.12.2001-ci il tarixli, 08/174 nömrəli əmrinə (04.09.2008-ci il tarixli 10/40 №-li, 11.02.2010-cu il tarixli 10/14 №-li, 03.09.2015-ci il tarixli 10/79 nömrəli əmrlərlə edilmiş dəyişikliklərlə) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin adı "Prokurorluq işçilərinin ixtisaslarının artırılması, attestasiya olunması işinin təkmilləşdirilməsi haqqında" adlandırılsın;

**1.2.** Əmrin Preambulasında "Bununla yanaşı Baş Prokurorluğun Ali Attestasiya Komissiyasının 18 dekabr 2001-ci il tarixdə keçirilmiş iclasının nəticələri göstərmişdir ki, bir sıra prokurorlar (Astara rayon prokuroru H.M.Babayev, Cəbrayıl rayonunun sabiq prokuroru F.Ə.Quliyev) işçilərin, ilk növbədə gənc mütəxəssislərin nəzəri və peşə hazırlıqlarının yüksəldilməsi kimi mühüm məsələyə zəruri diqqət yetirməmiş, tabeçiliklərində olan əməkdaşların fəaliyyətinə dair şişirdilmiş iş göstəriciləri əks etdirməklə onların haqqında qeyri-obyektiv attestasiyaların tərtib olunmasına yol vermişlər. Bunun nəticəsidir ki, attestasiya zamanı zəif bilik nümayiş etdirmiş Astara rayon prokurorunun böyük köməkçisi N.Məmmədov, Cəbrayıl rayon prokurorluğunun müstəntiqi A.Həmidovun təkrar attestasiyadan keçirilməsi qərara alınmışdır. Abşeron rayon prokurorluğunun böyük müstəntiqi E.M.Əhmədov, Bərdə rayon prokurorluğunun müstəntiqi E.K.Məsimov və Xanlar rayon prokurorluğunun böyük müstəntiqi N.S.Muradov da attestasiyadan keçirilərkən tələblərə cavab verməyən bilik və hazırlıq nümayiş etdirmişlər" sözləri çıxarılsın;

**1.3.** Əmrin 1.1-ci bəndində "və ya seminarların" sözləri çıxarılsın;

**1.4.** Əmrin 1.2-ci bəndində "Cinayət və Cinayət-Prosessual məcəllələrinin, statut qanunların, fəaliyyət istiqamətləri üzrə işin təşkili barədə Baş prokurorun əmr, sərəncam və göstərişlərinin" sözləri "qanunvericiliyin yeni normalarının tətbiqi metodologiyasının və təcrübəsinin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun, Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin Plenum qərarlarının, Baş Prokurorluq (və müvafiq yuxarı prokurorluq) üzrə normativ aktların icra metodikası və taktikasının, metodiki tövsiyələrin, elmi-praktiki şərhlərin, hüquq ədəbiyyatının, müsbət iş təcrübəsinə dair icmal və informasiya məktublarının, prokurorluqda tətbiq olunan informasiya sistemlərinin proqram təminatı ilə çalışma qaydalarının" sözləri ilə əvəz edilsin, "öyrənilməsi" sözündən sonra vergül işarəsi qoyulmaqla "tədris tədbirlərində təlimçi qismində iştirak edəcək işçinin əvvəlcədən müəyyən edilməsi, onun tərəfindən məşğələdə istifadə ediləcək ədəbiyyatın, tədris olunacaq biliklərin dairəsinin dəqiqləşdirilməsi, nümayiş etdirilməsi üçün əyani vəsaitlərin, nümunələrin və s. əldə edilməsi, məşğələlərin keçirilməsində informasiya texnologiyalarından və kompüter texnikasından geniş istifadə edilməsi" sözləri əlavə olunsun;

**1.5.** Əmrin 2-ci bəndində "nəzəri və peşə hazırlığı səviyyəsinə qiymət verilməsi və layiqli kadr ehtiyatının formalaşdırılmasında" sözləri "peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərin qiymətləndirilməsində" sözləri ilə əvəz olsun;

**1.6.** Əmrin 2.3-cü bəndində "əməkdaşlar barəsində tam, obyektiv və əməkdaşın fərdi və peşə keyfiyyətlərini dolğun və düzgün xarakterizə edən attestasiyaların" sözləri "attestasiya olunan hər bir işçinin fəaliyyətinə verilən qiyməti, onun fərdi xüsusiyyətlərini, güclü və zəif cəhətlərini, keçən dövr ərzindəki işinin nəticələrini əks etdirən xidməti xasiyyətnamənin" sözləri ilə əvəz edilsin;

**1.7.** Əmrin 2.4-cü bəndində "attestasiyaların tamlığı və obyektivliyinin" sözləri "xidməti xasiyyətnamədə göstərilən məlumatların" sözləri ilə əvəz edilsin;

**1.8.** Əmrin 2.5-ci bəndində "zərurət olduğu hallarda" sözü çıxarılsın, "tabe struktur qurumların rəhbərləri tərəfindən Kadrlar idarəsi" sözləri "attestasiya komissiyaları, müvafiq tabe struktur qurumların rəhbərləri tərəfindən Azərbaycan Respublikasının Baş prokuroru" sözləri ilə əvəz edilsin;

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/42**

Bakı şəhəri 25 iyul 2016-cı il

## Azərbaycan Respııblikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə dəyişikliklər edilməsi barədə

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasının, bu sahədə vəzifələrin daha dəqiq və ardıcıl surətdə yerinə yetirilməsinin təmin edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**Ə M R  E D İ R Ə M:**

**1.** «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin preambulasının 2-ci abzasının mətni ikinci cümlə hesab edilsin və mətnə aşağıdakı məzmunda birinci cümlə əlavə olunsun:

«Müraciət etmək hüququ vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi təsbit edilmişdir.»

**1.2.** Əmrin 7-ci bəndində “Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1998-ci il tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları” sözləri “Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2016-cı il tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və bələdiyyə mülkiyyətində olan və ya payların (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası” sözləri ilə əvəz edilsin;

**1.3.** Əmrin 13-7-ci bəndində hər iki halda «Təşkilat-analitik idarəsi» sözləri ismin müvafiq hallarında «Prokurorluqda istintaqa nəzarət idarəsi» sözləri ilə əvəz edilsin;

**1.4.** Əmrin 22-ci bəndinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“Müraciətlərin öyrənilməsi ilə əlaqədar yuxarı prokurorluqlar tərəfindən cinayət işləri və ya cinayət təqibi ilə bağlı digər materiallar üzrə məlumatlar və ya həmin materialların özləri tələb edildikdə, müvafiq sorğuların 3 gündən gec olmayaraq icra olunması təmin edilsin.»;

**1.5.** Əmrin 24-cü bəndinə «Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin,» sözlərindən sonra “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun,» sözləri əlavə edilsin;

**1.6.** Əmrin 40.2-40.4-cü bəndlərində «Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası» sözlərindən sonra bütün hallarda “, Naxçıvan Muxtar Respublikasının Hərbi» sözləri əlavə edilsin;

**1.7.** Əmrin 43-cü bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“Baş prokurorun müvafiq köməkçisi ona təqdim edilmiş sənəd və materialları öyrənməklə Baş prokurora məruzə etsin.»

**1.8.** Əmrin 50.4-cü bəndində «İnzibati xətalar haqqında işlər üzrə icraata prokuror nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 27.06.2001-ci il tarixli 02/100» sözləri «İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 03.03.2016-cı il tarixli 10/14” sözləri ilə əvəz edilsin;

**1.9.** Əmrin 50.7-ci bəndində «təmin edilsin» sözləri çıxarılsın və nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilərək, əmrə aşağıdakı məzmunda 50.8-ci bənd əlavə edilsin

**“50.8.** Cinayət işləri və ya cinayət təqibi ilə bağlı digər materiallar üzrə qəbul olunmuş prosessual qərarların ləğvinə yalnız kifayət qədər əsaslar müəyyən edildikdə yol verilməsi, bu səlahiyyətdən ədalət mühakiməsi maraqları ilə bağlı olmayan və ya formal əsaslara görə istifadənin qarşısının alınması təmin edilsin.”.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğunun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/45 – 11/303-k**

Bakı şəhəri 2 avqust 2016-cı il

## Azərbaycan Respublikası Baş prokurorunun 03.12.2007-ci il tarixli 10/101-11/410-k №-li əmri ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları"na dəyişiklik edilməsi haqqında

Prokurorluğa işə qəbul olunmaq istəyən namizədlərin ixtisas imtahanlarının təkmilləşdirilməsi məqsədi ilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Baş prokurorunun 03.12.2007-ci il tarixli 10/101-11/410-k №-li əmri ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları"na (09.07.2009-cu il tarixli 10/45 №-li, 18.04.2011-ci il tarixli 10/36a №-li, 25.05.2012-ci il tarixli 10/59-1l/132k №-li və 03.09.2015-ci il tarixli 10/79 №-li əmrlərlə edilmiş əlavə və dəyişikliklərlə) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Qaydaların 4.2-ci bəndində "İmtahan suallarının" sözləri "Test tapşırıqlarının" sözləri ilə əvəz edilsin, "siyahısı" sözündən sonra "imtahan gününə ən azı bir ay qalmış" sözləri əlavə edilsin;

**1.2.** Qaydaların 4.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"Test tapşırıqları Komissiya tərəfindən hazırlanır və bu işə hüquqşünaslar, mütəxəssislər cəlb edilə bilər. Hazırlanmış test toplusundakı testlərin sayı imtahanda istifadə edilə biləcək testlərin sayından ən azı on dəfə çox olmalıdır. Test tapşırıqları Konstitusiyanı, cinayət hüququnu, cinayət prosesini, həmçinin prokurorluğun fəaliyyəti ilə əlaqəli digər qanunvericilik sahələrini əhatə edir.";

**1.3.** Qaydaların 4.4-cü bəndinin birinci və ikinci abzasları birinci abzas hesab edilməklə aşağıdakı redaksiyada verilsin:

"Test tapşırıqları imtahan gününə ən azı 10 gün qalanadək hazırlanmalı, Komissiyada baxılıb təsdiq edilməli, zərfə qoyulub möhürlənərək məxfiliyi təmin edilməli və xüsusi yerdə saxlanılmalıdır. Test tapşırıqlarının məcmusu tətbiqə hazır vəziyyətə gətirilməsi məqsədi ilə xüsusi proqramda emal edilməsi üçün imtahan ərəfəsində elektron formatda Komissiyanın müəyyən etdiyi şəxs tərəfindən Dövlət İmtahan Mərkəzinin müvafiq vəzifəli şəxsinə təhvil verilir, imtahan ərəfəsində imtahan prosesinə ezam edilmiş prokurorluq işçilərinə möhürlü zərfdə təqdim edilir. Zərf Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi qapalı yerdə və testlərin məzmunu barədə məlumatların yayılmasını istisna edən şəraitdə açılır.";

**1.4.** Qaydaların 4.4-cü bəndinin 3-cü abzasının 2-ci cümləsi çıxarılsın, həmin abzasın 1-ci cümləsində qeyd edilən "imtahan sualı" sözləri "test tapşırığı" sözləri ilə əvəz edilsin;

**1.5.** Qaydaların 4.5, 4.9, 5.1 və 9.3-cü bəndlərində ismin müvafiq hallarında "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası" sözləri "Dövlət İmtahan Mərkəzi" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 22-1.3.3-cü maddədən "attestasiyası və ya onun" sözləri çıxarılsın.

**1.2.** 28-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 28. Dövlət qulluğuna qəbul**

**28.1.** Dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

**28.2.** Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir.

Test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Test imtahanında iştirak etmək üçün ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**28.3.** Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum test imtahanından keçən şəxsə inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq test imtahanından keçdiyini təsdiq edən sertifikat verir. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən sertifikatın qüvvədəolma müddəti beş ildir. Şəxs dövlət qulluğu vəzifələri üzrə, bu Qanuna uyğun olaraq bir neçə sertifikat ala bilər.

**28.4.** Müsahibəni dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı təşkil edir.

Müsahibənin keçirilməsi haqqında elan, sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət göstərilməklə, dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanının internet saytında və digər kütləvi informasiya vasitələrində verilir.

**28.5.** Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatı qüvvədə olan şəxs müsahibədə iştirak edə bilər. Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**28.6.** Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.

Dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı müsahibənin keçirilməsi üçün müsahibə komissiyası yaradır. Müsahibə komissiyası 5 nəfərdən ibarət tərkibdə, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə yaradılır. Müsahibə komissiyası üzvünün müsahibənin nəticələri barədə xüsusi rəyi müsahibənin nəticələrinin araşdırılması üçün əsasdır.

Müsahibə komissiyasının reqlamenti, o cümlədən müsahibə komissiyası tərkibinin formalaşdırılması, müsahibənin keçirilməsi, qiymətləndirmənin aparılması, müsahibənin nəticələrinin araşdırılması qaydası və keçid balları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**28.7.** Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant dövlət qulluğu vəzifəsinə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək, altı ay müddətinə stajçı kimi qulluğa qəbul etməli və vakant dövlət qulluğu vəzifəsinə təyin etməlidir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir

və staj müddəti qurtardıqdan sonra stajçının sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə üç ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**28.8.** Stajçı kimi qulluğa qəbul edilmiş şəxs həmin müddətdə bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.

**28.9.** Daimi dövlət qulluğuna qəbul edilmiş və bu Qanunun 33.1-ci maddəsinə uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində bu Qanunun 28.7-ci maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti tətbiq edilmir.

**28.10.** Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

**28.11.** Vakant vəzifəyə təyin olunmaq üçün dövlət orqanının rəhbərinə təqdim olunmuş, lakin vakant vəzifəyə təyin edilməmiş namizədlər iki il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır. Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə olduqda, namizədlər onların razılığı ilə həmin vəzifələrə təyin edilir. Həmin müddət ərzində inzibati vəzifələrə təyin edilən namizəd ehtiyat kadrlar siyahısından çıxarılır. Şəxsin bir dövlət orqanında ehtiyat kadr kimi saxlanılması digər dövlət orqanında dövlət qulluğuna qəbul üzrə keçirilən müsahibədə iştirakını məhdudlaşdırmır.

**28.12.** Bu Qanunun 28-ci maddəsinin müddəaları ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali, birinci, ikinci və üçüncü təsnifatı vəzifələrinə və bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət qulluğunun xüsusi növünə qəbula şamil edilmir. Bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət orqanlarında qulluğa (xidmətə) qəbul qaydaları Azərbaycan Respublikasının dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunları ilə müəyyən edilir.".

**1.3.** Aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

**"Maddə 28-1. Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi**

**28-1.1.** Dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində növbəti sertifikat almaq üçün müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən keçirilən imtahanlarda iştirak etməli və yenidən sertifikat almalıdır.

**28-1.2.** Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxs sonradan iki dəfə sertifikat aldıqda, sonuncu sertifikat şəxsə ömürlük verilir və həmin şəxs dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirməsi üçün hər hansı bir imtahana cəlb oluna bilməz.

**28-1.3.** Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxsi işlədiyi dövlət orqanının rəhbəri bu Qanuna əsasən digər oxşar vəzifəyə təyin edə, habelə sertifikatına uyğun olaraq, vəzifədə irəli çəkə bilər.".

**1.4.** 29.2-ci maddənin birinci hissəsinin üçüncü cümləsində və 29.4-cü maddənin birinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözləri ilə əvəz edilsin.

**1.5.** 29.7-ci maddədə "nümayəndəsi də daxil olmaqla, üzvlərinin sayı üç nəfərdən az olmayan" sözləri "yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə, 5 nəfərdən ibarət" sözləri ilə əvəz edilsin.

**1.6.** 29.9.2-ci və 31-ci maddələr ləğv edilsin.

**1.7.** 30-1.1-ci maddənin üçüncü cümləsi çıxarılsın.

**1.8.** 33.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"33.1.5.** dövlət qulluqçusunun aldığı sertifikatın qüvvədəolma müddəti bitdikdə və dövlət qulluqçusu növbəti sertifikat ala bilmədikdə;".

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanunun müddəaları bu Qanun qüvvəyə minənədək dövlət qulluğunda çalışan şəxslərə şamil edilmir.

**2.2.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 32-1.8.4-cü maddəsi bu Qanun qüvvəyə mindikdən sonra dövlət qulluğuna qəbul edilən şəxslərə şamil edilmir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2016-cı il
№ 267-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2, I kitab, maddə 193) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 26.1-ci maddədə “və vəzifələrini layiqincə icra etmədiyinə” sözləri “, vəzifələrini layiqincə yerinə yetirmədiyinə, həmçinin “Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi”nin tələblərinə əməl etmədiyinə” sözləri ilə əvəz edilsin.

**2.** 27.6-cı maddədə “bir” sözü “üç” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 iyun 2016-cı il
№ 295-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654; Azərbaycan Respublikasının 2016-cı il 15 aprel tarixli 208-VQD nömrəli, 6 may tarixli 231-VQD nömrəli, 17 may tarixli 255-VQD nömrəli qanunları) 499.2-ci maddəsinin sanksiyası aşağıdakı redaksiyada verilsin:

“inzibati xətanın bilavasitə obyekti olan mallar və ya nəqliyyat vasitələri müsadirə edilir, yaxud vətəndaşlar həmin malların və ya nəqliyyat vasitələrinin dəyərinin yetmiş faizindən yüz faizinədək məbləğdə cərimə edilir, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həmin malların və ya nəqliyyat vasitələrinin dəyərinin yetmiş faizindən yüz faizinədək məbləğdə cərimə edilir və ya Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyun 2016-cı il
№ 300-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93; № 11, maddə 1255, № 12, maddə 1442) 14-cü maddəsinin ikinci hissəsinə “icazə” sözündən sonra “və ya qaçqın statusu” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyun 2016-cı il
№ 302-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 2, I kitab, maddə 202; № 3, maddə 397, maddə 403, maddə 429; № 4, maddə 631, maddə 647, maddə 654; Azərbaycan Respublikasının 2016-cı il 15 aprel tarixli 208-VQD nömrəli, 6 may tarixli 231-VQD nömrəli, 17 may tarixli 255-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 97.2-1-ci maddə əlavə edilsin:

**“97.2-1.** Bu Məcəllənin 353-cü maddəsində nəzərdə tutulmuş inzibati xəta törədildiyi halda nəqliyyat vasitəsinin nəzarət məntəqəsində saxlanılması üçün haqq ödənildikdən sonra, saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır.”.

**2.** 127-1.2-ci maddəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun” sözləri əlavə edilsin.

**3.** 127-1.4-cü və 127-1.6-cı maddələrə “texniki vasitələrlə” sözlərindən sonra “saxlanılmış nəqliyyat vasitəsini idarə edən şəxsin iştirakı ilə müvafiq icra hakimiyyəti orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun əməkdaşları tərəfindən” sözləri əlavə edilsin.

**4.** 127-1.7 və 127-1.8-ci maddələrdə “duracağa gətirilməsi və onun orada” sözləri “nəzarət məntəqəsində” sözləri ilə əvəz edilsin.

**5.** 127-1.8-ci maddədə “Müvafiq icra hakimiyyəti orqanı” sözlərindən sonra “və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum” sözləri əlavə edilsin, həmin maddədə “yaratmalıdır” sözü “yaratmalıdırlar” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyun 2016-cı il
№ 303-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanını "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 121-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2006, № 2, maddə 92; 2010, № 4, maddə 289; 2011, № 4, maddə 272, № 5, maddə 381; 2014, № 7, maddə 818; 2015, № 6, maddə 695, № 10, maddə 1111) I hissəsinin dördüncü və beşinci abzaslarında "yaşayış binalarının, habelə digər qapalı tikililərin" sözləri "yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyun 2016-cı il
№ 956

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

## "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması Qaydası"nın təsdiq edilməsi barədə

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəliFərmanının 1.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**Yaqub EYYUBOV,**
**Azərbaycan Respublikası**
**Baş nazirinin birinci müavini**
Bakı şəhəri, 25 iyul 2016-cı il
№ 283

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 iyul tarixli 283 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması

# QAYDASI

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 94.9-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və inzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının (bundan sonra – silah və ya döyüş sursatı) inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) inzibati xəta haqqında iş üzrə qərarı qanuni qüvvəyə minənədək uçotu, saxlanılması və aidiyyəti üzrə təhvil verilməsi qaydasını müəyyən edir.

**1.2.** Silahın və ya döyüş sursatının götürülməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 94-cü maddəsinə uyğun olaraq həyata keçirilir.

**1.3.** İnzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxs götürülmüş silahı və ya döyüş sursatını bu Qaydaya uyğun olaraq saxlanılmağa verənədək onun mühafizəsinin təmin edilməsi üçün zəruri tədbirlər görür.

**1.4.** Götürülmüş silahın və ya döyüş sursatının mənimsənilməsi, özgəninkiləşdirilməsi, dəyişdirilməsi, xidməti və digər qanunsuz məqsədlərlə istifadə olunması qadağandır və qanun-vericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

**1.5.** İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silah və ya döyüş sursatı inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) inzibati xəta haqqında iş üzrə müvafiq qərarı qanuni qüvvəyə mindiyi günədək saxlanılır.

## 2. İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının uçotu qaydası

**2.1.** Götürülmüş silahın və ya döyüş sursatının itirilməsi, oğurlanması, təyinatına uyğun olmadan istifadə edilməsi hallarının qarşısının alınması məqsədi ilə uçotu aparılır.

**2.2.** Götürülmüş silah və ya döyüş sursatı onun növünü, təyinatını və texniki vəziyyətini müəyyən etmək məqsədi ilə müvafiq ekspert rəyi alındığı vaxtdan dərhal sonra silahın və ya döyüş sursatının götürülməsi haqqında protokola əsasən inzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxs tərəfindən ərazi aidiyyəti üzrə polis orqanının növbətçi hissəsinə təhvil verilir. Ekspert rəyi verilənədək götürülmüş silahın və ya döyüş sursatının saxlanıldığı otaqlar və şkaflar (seyflər) bu Qaydanın 3-cü hissəsi ilə müəyyən edilmiş tələblərə cavab verməlidir.

**2.3.** Polis orqanının məsul növbətçisi götürülmüş silahı və ya döyüş sursatını qəbul edərkən silahın və ya döyüş sursatının götürülməsi haqqında protokolda silahın markası, modeli, seriyası, nömrəsi, istehsal ili, xarici görünüşü və digər eyniləşdirmə əlamətləri, o cümlədən döyüş sursatının növü və miqdarı barədə göstərilən məlumatların həqiqiliyini, habelə protokola əlavə olunmuş fotoşəkillərə və (və ya) videoyazıya uyğunluğunu yoxlayır və 3 nüsxədən ibarət “Silahın və ya döyüş sursatının qəbul edilməsi barədə qəbz” tərtib edir *(1 nömrəli əlavə)*. Qəbzin birinci nüsxəsi silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsə təqdim edilir. İkinci nüsxəsi digər sənədlərlə (silahın və ya döyüş sursatının götürülməsi haqqında protokolun surəti, müvafiq raport və ya müşayiət məktubu və s.) birgə polis orqanının kargüzarlıq xidmətində qeydiyyatdan keçirilərək orqanın rəisinə məruzə olunur, üçüncü nüsxəsi (qəbzin kötüyü) nəzarət üçün növbətçi hissədə qalır. Silahın və ya döyüş sursatının götürülməsi haqqında protokolda göstərilən məlumatlarla təhvil verilən silahın və ya döyüş sursatının faktiki növü, miqdarı və digər eyniləşdirmə əlamətləri arasında uyğunsuzluq olduqda, silah və ya döyüş sursatı saxlanılmağa qəbul edilməklə inzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxsin iştirakı ilə akt tərtib edilir. Uyğunsuzluğun səbəblərinin (götürülmüş silahın və ya döyüş sursatının itirilməsi, oğurlanması, dəyişdirilməsi, özgəninkiləşdirilməsi və digər qanunsuz məqsədlərlə istifadəsi hallarının) müəyyən edilməsi məqsədi ilə silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsin aid olduğu səlahiyyətli orqanlar tərəfindən xidməti araşdırma aparılır. Araşdırmanın nəticələrindən asılı olaraq təqsirli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

**2.4.** Məsul növbətçi qəbul edilmiş silahı və ya döyüş sursatını silahın və döyüş sursatının saxlanılması üçün polis orqanında xüsusi ayrılmış otaqda metal şkafa yerləşdirir və qapılarını qıfılla kilidləyərək möhürləyir.

**2.5.** Polis orqanı rəisinin yazılı göstərişi ilə silah və ya döyüş sursatı qəbzin kötüyündə imza etdirilməklə məsul növbətçi tərəfindən cavabdeh əməkdaşa təhvil verilir. Həmin əməkdaş təhvil aldığı silah və ya döyüş sursatını dərhal “İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının qeydiyyatı kitabı”nda qeydiyyata alır, onları xüsusi ayrılmış otaqda metal şkafa yerləşdirir, qapılarını qıfılla kilidləyərək möhürləyir və şkafın açarlarını silahın və ya döyüş sursatının mühafizəsi məqsədi ilə məsul növbətçiyə təhvil verir *(2 nömrəli əlavə)*. Növbənin qəbulu və təhvili zamanı möhürlənmiş şkafların üzərində möhürün izlərinin tamlığı yoxlanılır.

**2.6.** Qəbz və qeydiyyat kitabları Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın apa-

rılmasına dair Təlimat"a uyğun olaraq nömrələnir (tikilir, möhürlənir) və kargüzarlıq xidmətində qeydiyyata alınır. Növbə dəyişən zaman qəbzlər və digər sənədlər silah və ya döyüş sursatı ilə birlikdə növbə üzrə təhvil verilir.

### 3. İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının saxlanılması qaydası

**3.1.** Götürülmüş silah və ya döyüş sursatı rayon (şəhər) polis orqanlarında xüsusi ayrılmış otaqlarda saxlanılır.

**3.2.** Otaqlar digər yardımçı və xidməti otaqlardan təcrid olunmalı, əsaslı divarlara, möhkəm, etibarlı tavana və döşəməyə malik olmalıdır.

**3.3.** Otaqların 2 etibarlı qapısı (xarici qapı dəmirdən, daxili qapı şəbəkə formasında metal çubuqlardan hazırlanmalıdır) olmalı, xarici qapı 2 daxili qıfılla, daxili qapı daxili və ya asma qıfılla kilidlənməli və möhürlənməlidir (plomblanmalıdır).

**3.4.** Pəncərələrin daxili hissəsi dəmir barmaqlıqlarla təchiz edilməli, hər barmaqlığın kənarları divarlara ən azı 8 sm məsafədə yerləşdirilməlidir. Barmaqlıqların diametri 15 mm-dən az, onların kəsişdiyi məsafə isə 150x150 mm-dən çox olmamalıdır.

**3.5.** Otaqlar mərkəzləşdirilmiş siqnalizasiya sisteminə qoşulmalı, bu mümkün olmadıqda yüksək səs-verici qurğu ilə təmin edilməli, müasir texniki və ya digər mühafizə vasitələri, habelə yanğından mühafizə vasitələri ilə təchiz olunmalı və mövcud sanitar normalara cavab verməlidir.

**3.6.** Otaqlarda havanın hərarəti və rütubətliliyi silah və döyüş sursatının təhlükəsiz saxlanılmasını təmin edən səviyyədə olmalı, yanğın təhlükəsizliyi qayda və normalarına ciddi riayət olunmalıdır. Otaqlarda siqaret çəkmək, açıq alovlu, duru yanacaqlı işıqlandırıcı vasitələrdən (cihazlardan) istifadə etmək, yanacaq və tezalışan materiallar saxlamaq, otaqların çıxışlarında sərbəst hərəkətə mane olan əşyalar yerləşdirmək qəti qadağandır.

**3.7.** Otaqlarda olan bütün inventarlar (metal şkafların (seyflərin) sayı və nömrələri, hansı möhürlə möhürlənməsi müfəssəl göstərilməklə) siyahıya alınmalıdır.

**3.8.** Silah və döyüş sursatı saxlanılan otaqların və metal şkafların (seyflərin) iki komplekt açarları olmalı, onlardan biri polis orqanının növbətçi hissəsinin məsul növbətçisində, digəri isə möhürlənmiş zərfdə polis orqanının rəisində saxlanılmalıdır.

**3.9.** Otaqlar silahın və ya döyüş sursatının saxlanılması üçün divarlarının qalınlığı 3 mm-dən az olmayan, hər birinin ən azı iki daxili qıfılı olan metal şkaflarla (seyflərlə) təchiz edilməlidir. Şkafların üzərinə onların nömrəsi, maddi məsul şəxsin soyadı, adı və şəxsi möhürü barədə məlumatları əks etdirən yarlıq, qapılarının içəri hissəsinə isə orada saxlanılan silahların nömrələri və döyüş sursatlarının miqdarı göstərilən siyahı yapışdırılır. Şkaflar silahların yerləşdirilməsi və silahların süngüləri üçün münasib oyuqlarla təchiz olunur.

**3.10.** Silahlar və ya döyüş sursatları metal şkaflara növlərindən, ölçülərindən və digər xüsusiyyətlərindən asılı olaraq yerləşdirilir.

**3.11.** Silah və sursatların digər əşyalarla birgə saxlanılmasına, habelə silah və döyüş sursatlarının eyni şkafda saxlanılmasına yol verilmir.

**3.12.** Silahlar qobursuz, sandığı çıxarılmış, tətiyi buraxılmış və qoruyucuya qoyulmuş vəziyyətdə, bir-birinə toxunmamaq şərtilə saxlanılır.

### 4. İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının təhvil verilməsi qaydası

**4.1.** Götürülmüş silah və ya döyüş sursatı barədə məsələlər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 115.4-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə qərarda həll olunur.

**4.2.** Silah və ya döyüş sursatı inzibati xəta haqqında iş üzrə qərar qanuni qüvvəyə mindikdə, sahibinə və ya onun vəkalət verdiyi şəxsə, onların ərizə ilə müraciətindən dərhal sonra qaytarılır və cavabdeh əməkdaş tərəfindən bu barədə "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının qeydiyyatı kitabı"nda zəruri qeydlər aparılır.

**4.3.** Silah və ya döyüş sursatı sahibinə inzibati xəta haqqında iş üzrə qərar qanuni qüvvəyə mindikdən sonra 10 il ərzində polis orqanlarına ərizə ilə müraciət edildiyi halda qaytarılır. Göstərilən müddətdə silahın və ya döyüş sursatının sahibi və ya onun vəkalət verdiyi şəxs müraciət etmədikdə, silahın və ya döyüş sursatının dövlət mülkiyyətinə keçirilməsi üçün zəruri tədbirlər görülür.

**4.4.** İnzibati xəta haqqında iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarında silahın və ya döyüş sursatının müsadirə edilməsi nəzərdə tutulduqda, qanunvericiliklə müəyyən edilmiş qaydada onların dövlət mülkiyyətinə verilməsi həyata keçirilir.

**4.5.** Götürülmüş silah və ya döyüş sursatı "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatına aid olduqda, dövlət mülkiyyətinə keçirilməsi və ya məhv edilməsi üçün onlar üzərində sərəncamvermə səlahiyyəti olan aidiyyəti dövlət orqanlarına təhvil verilir.

### 5. İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının saxlanılmasına nəzarət və məsuliyyət

**5.1.** Götürülmüş silahın və ya döyüş sursatının saxlanılmasının vəziyyətinə nəzarət məqsədi ilə polis orqanının rəhbərliyi tərəfindən ayda bir dəfədən az olmayaraq onların saxlanıldığı yerlərə baxış keçirilir.

**5.2.** Baxış zamanı silah-sursatın əskikliyi, itirilməsi, korlanması, qeydiyyata alınmaması, özgəninkiləşdirilməsi, mühafizəsi təmin edilməyən yerlərdə saxlanılması faktları müəyyən edildikdə, polis orqanı tərəfindən dərhal xidməti araşdırma aparılır. Araşdırmanın nəticələri ümumiləşdirilir və müvafiq qaydada arayış tərtib olunur.

**5.3.** Götürülmüş silahın və ya döyüş sursatının uçotu, saxlanılması və təhvil verilməsi qaydasının pozulması onların itirilməsinə, korlanmasına səbəb olduqda, təqsirli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

*"İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması Qaydası"na*
***1 nömrəli əlavə***

| **Silahın və ya döyüş sursatının qəbul edilməsi haqqında**<br><br>**____ №-li QƏBZİN KÖTÜYÜ** | **Silahın və ya döyüş sursatının qəbul edilməsi haqqında**<br><br>**____ №-li QƏBZ** | **Silahın və ya döyüş sursatının qəbul edilməsi haqqında**<br><br>**____ №-li QƏBZ** |
|---|---|---|
| ____________________ | ____________________ | ____________________ |
| (silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsin | (silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsin | (silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsin |
| ____________________ | ____________________ | ____________________ |
| vəzifəsi, soyadı, adı, atasının adı) | vəzifəsi, soyadı, adı, atasının adı) | vəzifəsi, soyadı, adı, atasının adı) |
| ____________________ | ____________________ | ____________________ |
| Qəbul edilmişdir: | Qəbul edilmişdir: | Qəbul edilmişdir: |
| Silah ________________ | Silah ________________ | Silah ________________ |
| (növü) | (növü) | (növü) |
| Kalibri ________________ | Kalibri ________________ | Kalibri ________________ |
| Markası ________________ | Markası ________________ | Markası ________________ |
| Modeli ________________ | Modeli ________________ | Modeli ________________ |
| Seriyası ________________ | Seriyası ________________ | Seriyası ________________ |
| Nömrəsi ________________ | Nömrəsi ________________ | Nömrəsi ________________ |
| İstehsal ili ______________ | İstehsal ili ______________ | İstehsal ili ______________ |
| Ümumi texniki vəziyyəti______________ | Ümumi texniki vəziyyəti______________ | Ümumi texniki vəziyyəti______________ |
| (görünən nasazlıqları) | (görünən nasazlıqları) | (görünən nasazlıqları) |
| ____________________ | ____________________ | ____________________ |
| ____________________ | ____________________ | ____________________ |
| Döyüş sursatı (patronlar) ________ | Döyüş sursatı (patronlar) ________ | Döyüş sursatı (patronlar) ________ |
| ____________________ | ____________________ | ____________________ |
| (adı, növü, kalibri, miqdarı rəqəm və sözlə yazılmaqla) | (adı, növü, kalibri, miqdarı rəqəm və sözlə yazılmaqla) | (adı, növü, kalibri, miqdarı rəqəm və sözlə yazılmaqla) |
| ____________________ | ____________________ | ____________________ |
| ____________________ | ____________________ | ____________________ |
| ____________________ | ____________________ | ____________________ |
| (silahı və ya döyüş sursatını qəbul edən şəxsin | (silahı və ya döyüş sursatını qəbul edən şəxsin | (silahı və ya döyüş sursatını qəbul edən şəxsin |
| ____________________ | ____________________ | ____________________ |
| vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) | vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) | vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) |
| ________________ | ________________ | ________________ |
| (imza) | (imza) | (imza) |
| ________ ______20____ il | ________ ______20____ il | ________ ______20____ il |
| ____________________ | ____________________ | ____________________ |
| (silahı və ya döyüş sursatını saxlanması üçün qəbul edən | (silahı və ya döyüş sursatını saxlanması üçün qəbul edən | (silahı və ya döyüş sursatını saxlanması üçün qəbul edən |
| ____________________ | ____________________ | ____________________ |
| şəxsin vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) | şəxsin vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) | şəxsin vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı) |
| ________________ | ________________ | ________________ |
| (imza) | (imza) | (imza) |
| ________ ______20____ il | ________ ______20____ il | ________ ______20____ il |

*"İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanılması Qaydası"na*
***2 nömrəli əlavə***

(Üz qabığı)

**İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş silahın və ya döyüş sursatının qeydiyyatı**

**K İ T A B I**

____________________________________________________
(polis orqanı)

| Sıra №-si | Silahı və ya döyüş sursatını təhvil verən vəzifəli şəxsin vəzifəsi, soyadı, adı | Silahın və ya döyüş sursatının qəbul edilməsi barədə qəbzin nömrəsi | Silahın və ya döyüş sursatının adı | | | | | | Silahın və ya döyüş sursatının saxlanıldığı metal şkafın nömrəsi | Silahın və ya döyüş sursatının təhvil verilməsi haqqında qeyd | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | növü | kalibri | markası və modeli | seriyası və nömrəsi | istehsal ili | döyüş sursatının növü, kalibri və miqdarı | | verilmə tarixi | kimə verilib | təhvil verilmə üçün əsas olan sənədin nömrəsi və tarixi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |